9 fevral 2024 №11 (2076)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Zəfər seçkisində müzəffər imza

## Qarşıda Azərbaycan naminə yeni hədəflər və imzası atılacaq çox nailiyyətlər var



Müstəqillik tariximizdə ilk dəfə dövlətimizin suverenliyinin tam bərqərar olunduğu bütün ərazisini əhatə edən seçki uğurla gerçəkləşdi. 7 fevralda keçirilən növbədənkənar prezident seçkiləri Azərbaycanın 2020-ci ildə qazandığı tarixi Zəfərin və 2023-cü ildə son nidası qoyulan suverenlik mücadiləsinin təntənəsi kimi müstəsna əhəmiyyət kəsb edirdi.

Bu seçkilər, əslində, tarixi Zəfərimizin memarına, Prezident postunda Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı andını ləyaqətlə yerinə yetirmiş İlham Əliyevə ümumxalq etimadının parlaq nümayişi olmalı idi və oldu.

7 fevral seçkilərinin ən əlamətdar və müstəsna simvolu da müzəffər liderin məhz Xankəndi şəhərində, 35 il Azərbaycan dövlətinə meydan oxunmuş o məkanda səs verməsi idi. 2023-cü ilin 15 oktyabrında Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaldan İlham Əliyev Zəfər seçkisində öz imzasını da burada atdı...

Seçkinin rəqəmlərlə ifadə olunan nəticələri isə, əslində, bu tarixi gerçəyin fonunda, sadəcə, statistika, necə deyərlər, təfərrüatdır.

Fevralın 8-də Mərkəzi Seçki Komissiyasında növbədənkənar prezident seçkilərinin ilkin nəticələri elan olunub. Həmin nəticələrə görə, İlham Əliyev seçicilərin 92,05 faizinin səsini (4 milyon 281 min 625 səs) qazanaraq qalib olub. Digər 6 namizəd isə, ümumilikdə, 8 faizdən də az səs toplayıb.

Müvafiq prosedura görə, MSK bundan sonra daxil olan sənədləri araşdırıb iclasına çıxaracaq və səsvermənin nəticələri ilə bağlı yekun protokolu təsdiqləyəcək. MSK səviyyəsində seçkilərə yekun vurulandan sonra protokol təsdiq üçün Konstitusiya Məhkəməsinə göndəriləcək.

Konstitusiya Məhkəməsi də, öz növbəsində, MSK-nın təqdim etdiyi sənədləri araşdırıb qərar qəbul edəcək. Konstitusiya Məhkəməsinin qərarından sonra lider namizəd seçilmiş hesab olunur və andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayacaq.

Qeyd edək ki, bu, İlham Əliyevin 2003-cü ildən bəri prezident seçkilərində beşinci qələbəsidir. Budəfəki inamlı, yüksək ümumxalq dəstəyi ilə ifadə olunan qələbədən sonra isə Azərbaycanın qarşısında yeni tarixi mərhələ, inkişaf yolu açılır.

Bu barədə Prezident İlham Əliyev ilin əvvəlində, yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirmişdi: "Bu gün ölkə qarşısında duran vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik. 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir. Yeni dövrə köhnə hədəflərlə gedə bilmərik...".

Bəli, qarşıda Azərbaycanın qüdrətini daha da artırmaq, gücünə güc qatmaq, xalqın rifah və firavanlığını daha da yüksəltmək üçün yeni üfüqlər, yeni hədəflər və hələ imzası atılmalı çox nailiyyətlər var...

## İlham Əliyevi təbrik edirlər

7 fevral seçkilərində inamlı qələbə qazanaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevi müxtəlif ölkələrin dövlət və hökumət başçıları təbrik edirlər.

Fevralın 7-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Özbəkistan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edib, ölkəmizin daha da inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb.

Belarus Prezidenti Aleksandr Lukaşenko fevralın 7-də Azərbaycan Prezidentinə zəng edib, onu seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edib.

Macarıstanın Baş naziri Viktor Orban da fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərək təbriklərini çatdırıb.

Fevralın 7-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə zəng edib. O, dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb.

Fevralın 8-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevə zəng edərək onu seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edib.

"Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafı və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram" – bu fikirlər isə Çin Xalq Respublikasının Sədri Si Cinpinin İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar da İlham Əliyevə zəng edərək onu seçkilərdə qazandığı qələbə münasibətilə təbrik edib.

Pakistan Prezidenti Arif Alvi, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Qırğızıstan Prezidenti Sadır Japarov, İraq Prezidenti Əbdüllətif Camal Rəşid, Tacikistan Prezidenti Emoməli Rəhmon, Serbiya Prezidenti Aleksandr Vuçiç, Ukrayna Prezidenti Volodimir Zelenski və başqa dövlət rəhbərləri də Azərbaycan liderini təbrik ediblər.

Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də Azərbaycan rəhbərinə zəng edib. Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, gələcək fəaliyyətində uğurlar arzulayıb. Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.




6–9 fevral tarixlərində İstanbulda keçirilən 27-ci Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisində ölkəmizin turizm imkanları nümayiş olunur.

## Turizm imkanlarımız İstanbul sərgisində

Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə qurulan milli stendimizdə altı turizm şirkəti, iki hotel qrupu və "Azərbaycan Hava Yolları" QSC təmsil olunur. Sərgidə ziyarətçilərə Azərbaycanın turizm potensiallı məkanları, qastroturizm, şərabçılıq, eləcə də qış turizmi imkanları, dağ-xizək mərkəzləri, UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş "Xınalıq və Köç Yolu" mədəni landşaftı daxil olmaqla maddi-mədəni irs nümunələri haqqında ətraflı məlumat verilir. Həmçinin Türkiyədən və digər ölkələrdən olan turizm sənayesi nümayəndələri ilə B2B formatlı görüşlər keçirilir.

Sərgiyə Azərbaycan və Türkiyə ilə yanaşı, Almaniya, Bolqarıstan, Braziliya, Misir, İran, Yaponiya və digər ölkələr də qatılıb.

Qeyd edək ki, Türkiyə 2023-cü ildə Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayına görə ikinci yerdədir. Ötən il Türkiyədən ölkəmizə 378 min 204 nəfər səfər edib.

## Korifey kino xadiminin məzarı ziyarət olunub

Fevralın 7-də Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, kinorejissor, Xalq artisti Tofiq Tağızadənin (1919 – 1998) anadan olmasının 105-ci ildönümü tamam olub.

Bu münasibətlə tanınmış kino xadimləri və sənətkarın ailə üzvləri Fəxri xiyabanda Tofiq Tağızadənin məzarını ziyarət ediblər.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək Azərbaycan kinosunun inkişafında Tofiq Tağızadənin xüsusi xidmətləri olduğunu deyib, rejissorun quruluş verdiyi ekran əsərlərinin bu gün də tamaşaçılar tərəfindən sevildiyini vurğulayıb.




Xalq artisti, kinorejissor Oqtay Mirqasımov görkəmli rejissoru ilk dəfə "Uzaq sahillərdə" filminin çəkilişi zamanı gördüyünü, daha sonra "Azərbaycanfilm" kinostudiyasında işə götürülərkən onun filmində təcrübə keçdiyini və uzun illər dostluq etdiklərini bildirib.

Sənətkarın ailəsi adından çıxış edən Əməkdar artist, aktyor Firdovsi Atakişiyev Tofiq Tağızadə ilə səmimi münasibətlərindən danışıb, onun yaradıcılıq irsinin Azərbaycan Dövlət Film Fondunda qorunmasından söz açıb. O, anım mərasiminin təşkilinə görə Mədəniyyət Nazirliyinə, Kino Agentliyinə və tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Qeyd edək ki, Tofiq Tağızadə quruluşçu rejissoru olduğu "Görüş", "Uzaq sahillərdə", "Arşın mal alan" (1965), "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Bağ mövsümü", "O dünyadan salam" və başqa ekran əsərləri ilə Azərbaycan kinematoqrafiyasının inkişafına mühüm töhfələr verib.

Dövlət başçısının sərəncamı ilə 2019-cu ildə rejissorun 100 illik yubileyi geniş şəkildə qeyd olunub.

## Özbəkistan kitabxanalarına ölkəmizlə bağlı kitablar bağışlanıb




Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanası, Turan kitabxanası və Özbəkistanın vilayətlərində yerləşən 14 kitabxanaya Azərbaycana dair nəşrlər hədiyyə edib.

səh.3

## Azərbaycanlı rejissorun "İki gün"ü Tampere festivalında

Rejissor Teymur Qəmbərovun "İki gün" qısametrajlı filmi 54-cü Tampere Film Festivalının (Finlandiya) beynəlxalq müsabiqə proqramına daxil edilib.



Martın 6-dan 10-dək keçiriləcək festivalda beynəlxalq müsabiqə proqramına 48 ölkədən 64 film seçilib.

"Debüt Film" studiyasında çəkilən film 44 günlük Vətən müharibəsi zamanı kiçik bir ailənin həyatından bəhs edir. Mələk Bayramlı və Təranə Vəliyevanın rol aldığı filmin prodüserləri Orxan Abbasov və Lika Gavrişdir. Filmin musiqisi rejissorun atası, tanınmış cazmen, pianoçu, bəstəkar, Xalq artisti Salman Qəmbərova məxsusdur.

Bəstəkar bir müsahibəsində demişdi: "Son iki işim oğlum Teymur Qəmbərovun çəkdiyi "Quxuroba" və "İki gün" qısametrajlı filmləridir. Bu, asan kino dili deyil. Oğlum məndən bu filmlərə musiqi bəstələməyimi istədi. Sevinirəm ki, onun ilk filmi olan "Quxuroba" bir sıra beynəlxalq mükafatlara, o cümlədən Sarayevo kinofestivalının mükafatına layiq görülüb".

Xatırladaq ki, "İki gün" filmi 2021-ci ildə Mədəniyyət Nazirliyinin elan etdiyi "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsinin qalib işlərindəndir.

## Yaxın və Orta Şərqin görkəmli memarı

Bu il nəinki Azərbaycanın, həmçinin Yaxın və Orta Şərqin görkəmli memarı hesab olunan Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyidir. Yaratdığı memarlıq abidələri ilə ölməzlik qazanan sənətkarın yubileyi UNESCO-nun 2024–2025-ci illər üzrə yubileylər proqramı çərçivəsində qeyd ediləcək. Bununla da, bütün dünya onun memar-mühəndis kimi yadigar qoyduğu qiymətli maddi-mədəni mirasdan xəbərdar olacaq.

səh.6



Dahi bəstəkarın xatirəsinə həsr olunmuş konsert

səh. 3



"Əlαddinin sehrli çırağı" səhnədə "yanır"

səh. 3



Musiqişünas Aida Tağızadənin 90 illiyi qeyd edilib

səh.5

# Prezident seçkilərindən sonra ilk görüşlər

## İlham Əliyev seçkiləri müşahidə missiyalarının rəhbər və heyətləri ilə görüşüb

7 fevral növbədənkənar prezident seçkilərini müxtəlif beynəlxalq və regional təşkilatların, ayrı-ayrı ölkələrin parlamentlərinin nümayəndə heyətləri müşahidə edib. Seçkilərdə inamlı qələbə qazanan dövlət başçısı İlham Əliyev onların bir qismi ilə görüşüb.

### MDB-nin baş katibi: Azərbaycan xalqı üçün tarixi seçkilər idi

Fevralın 8-də Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin (MDB) baş katibi Sergey Lebedevi qəbul edib.

MDB-nin baş katibi Azərbaycan xalqının ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunandan sonra ilk dəfə keçirilən seçkidə iştirak etdiyini deyib, həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərini, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasını və həmin ərazilərdə seçki hüquqlarından istifadə etdiklərini vurğulayıb.

Sergey Lebedev MDB müşahidə missiyasının 170-ə yaxın müşahidəçi ilə seçki prosesində təmsil olunduğunu diqqətə çatdırıb, seçkilərin Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun qaydada açıq, demokratik şəkildə təşkil olunduğunu bildirib.

Seçkilərdə inamlı qələbəsi münasibətilə İlham Əliyevə təşkilat adından təbriklərini çatdıran Kubanıçbek Ömüralıyev TDT-nin geniş müşahidə missiyasının Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şuşada, Xankəndidə və azad edilmiş digər ərazilərdə olduğunu, Türk dünyasının başqa təsisatlar ilə əlaqələndirilmiş şəkildə seçki prosesini müşahidə etdiklərini vurğulayıb. O, seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu qeyd edib.

TDT-nin baş katibi şanlı Qarabağ Zəfəri və ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması ilə əlaqədar Azərbaycan xalqının bu seçkilərdə xüsusi əhval-ruhiyyə ilə seçki hüquqlarından istifadə etdiklərini deyib.







Sergey Lebedev İlham Əliyevə seçkilərdə inamlı qələbə münasibətilə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı Sergey Lebedevə və MDB müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə təşəkkürünü bildirib, missiyanın Azərbaycanda bu və daha əvvəlki seçkilərdə də müşahidələrdə fəal şəkildə iştirak etdiyini vurğulayıb.

Sergey Lebedev qeyd edib ki, Azərbaycanda seçki prosesini müşahidə etmək onlar üçün böyük şərəf və eyni zamanda məsuliyyətdir. Qeyd edib ki, bu, Azərbaycan xalqı üçün tarixi bir gün və tarixi seçkilər idi. Ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, regionda uzunmüddətli və davamlı sülh üçün yaxşı imkanların yarandığını deyən qonaq bu seçki prosesində sadə insanlarla, seçicilərlə, müşahidəçilərlə geniş söhbətlərin olduğunu, Azərbaycan xalqının bu seçkilərdə xüsusi rəğbət hissi ilə öz seçki hüquqlarından istifadə etdiklərini bildirib.

Dövlətimizin başçısı seçkilərin ilk dəfə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəkildə ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və digər rayonlarda keçirildiyini qeyd edərək bunun Azərbaycan xalqı üçün xüsusi tarixi əhəmiyyət daşıdığını vurğulayıb.

Söhbət zamanı MDB-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunulub, Azərbaycanın MDB çərçivəsində əlaqələrə və müzakirələrə töhfə verdiyi, MDB ölkələri arasında siyasi, mədəni, iqtisadi və digər sahələrdə əməkdaşlıq layihələri barədə fikir mübadiləsi aparılıb.

### Azərbaycanda TDT-nin qeyri-rəsmi zirvə toplantısı keçiriləcək

Prezident İlham Əliyev fevralın 8-də Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Prezident İlham Əliyev TDT-nin müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə minnətdarlığını bildirib.

Kubanıçbek Ömüralıyev qeyd edib ki, Azərbaycan TDT çərçivəsində inteqrasiya prosesinə və tərəfdaşlığın daha da yüksəlməsinə daim öz töhfələrini verir.

Görüşdə bu il Azərbaycanda TDT-nin qeyri-rəsmi Zirvə toplantısının keçiriləcəyi məmnuniyyətlə qeyd edilib. Təşkilatın bundan sonra da inkişafının, əməkdaşlığı və tərəfdaşlığı daha da gücləndirəcək yeni layihələrlə çıxış etməsinin vacibliyi diqqətə çatdırılıb.

### ŞƏT-in baş katibi: COP29 çərçivəsində də əməkdaşlıq edəcəyik

Fevralın 8-də İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Can Mini də qəbul edib.

İlham Əliyev müşahidə missiyasında iştirakına görə təşkilatın baş katibinə, müşahidə qrupunun üzvlərinə və üzv dövlətlərə minnətdarlığını bildirib.

Can Min Azərbaycanın ŞƏT-in fəal tərəfdaşlarından biri olduğunu və ölkəmizlə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verdiklərini bildirib. Baş katib Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı xüsusilə qeyd edib.

Dövlətimizin başçısı Azərbaycan ilə ŞƏT arasında əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanların olduğunu bildirdi, ölkəmizin eyni zamanda təşkilatın üzv dövlətlərlə də ikitərəfli qaydada çox sıx əlaqələrini vurğulayıb. Dövlətimizin başçısı prezident seçkilərində qələbə münasibətilə ilk təbrikləri təşkilata üzv ölkələrdən aldığını qeyd edib. İlham Əliyev ŞƏT-ə üzv ölkələrin Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş zirvə toplantısında iştirakını məmnunluqla xatırlayıb.

Qonaq Azərbaycanın COP29-a ev sahibliyi münasibətilə təbriklərini çatdırıb, bunun Azərbaycanın insaniyyətə və başəri inkişafa verdiyi töhfənin bariz nümunəsi olduğunu bildirib. Can Min COP29 çərçivəsində də Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq məsələlərini qeyd edib.

### TBMM heyəti: Azərbaycan xalqı bu seçkilərdə qürurla iştirak etdi

Fevralın 8-də İlham Əliyevin daha bir görüşü Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti ilə olub.

İlham Əliyev prezident seçkilərini müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirib.

Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək dövlətimizin başçısını seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edib. O, Azərbaycan və Türkiyə liderləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu vurğulayıb.

Dövlətimizin başçısı seçkilərdə qazandığı qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğanın ona təbrik məktubu göndərdiyini və Türkiyə Prezidenti ilə telefonla danışdıqlarını məmnunluqla qeyd edib.

Şamil Ayrım Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs vermələrinin böyük əhəmiyyət daşıdığını bildirib. Dövlətimizin başçısı da Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənasının olduğunu vurğulayıb.

Şamil Ayrım 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında Prezident İlham Əliyevin və Azərbaycanın dünyaya bir nümunə göstərdiyini qeyd edib. Ümummilli lider Heydər Əliyevin vəsiyyətinin dövlətimizin başçısı tərəfindən yerinə yetirildiyini deyən qonaq vurğulayıb ki, Azərbaycan xalqı ilk dəfə olaraq bu seçkilərdə ərazi bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qürurla iştirak etdi.

Azərbaycan Prezidenti Vətən müharibəsində Qələbədə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin mənəvi-siyasi dəstəyinin yüksək qiymətləndirildiyini bir daha qeyd edib.

Söhbət zamanı TDT və TÜRKPA çərçivəsində əməkdaşlıq məsələlərinə də toxunulub.

Nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevin TDT-nin daha da inkişafı üçün fəaliyyətini yüksək qiymətləndirdiklərini deyiblər.

---

## "Seçkilərin yüksək səviyyədə keçirilməsinin şahidi olduq"

Fevralın 8-də Asiya Parlament Assambleyasının müşahidə missiyası növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib.




Missiyanın rəhbəri Məhəmməd Reza Məcidi prezident seçkilərinin yüksək səviyyədə keçirilməsinin şahidi olduqlarını deyib.

Assambleyanın üzvü İlyas Topsakal isə qeyd edib ki, Bakıda 6 dairədə, regionlarda isə bir neçə məntəqədə müşahidələr aparıblar.

"Azərbaycanda keçirilən seçkilərin təhlükəsizlik baxımından dünyada ən yüksək səviyyədə baş tutmuş seçki prosesi olduğunu deyə bilərik. Seçki prosesini aparan texniki işçilərin də prosesə çox yaxşı səviyyədə hazırlaşdığını müşahidə etdik. Səslərin sayılması prosesində də iştirak etmişik. Bu prosesdə Prezident İlham Əliyevin çox böyük sayda səs qazandığının şahidi olduq. Bu, demokratiya baxımından böyük uğurdur", – deyə o qeyd edib.

## "Azərbaycan üçün demokratik bayram oldu"




İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏT Pİ) müşahidə missiyası da fevralın 8-də növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib.

Müşahidə missiyasının rəhbəri, İƏT Pİ baş katibinin müavini Əli Əsğər Mohammadi Sicani Azərbaycanda növbədənkənar prezident seçkilərinin çox yüksək səviyyədə keçirildiyini deyib.

"Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. Bu, çox əhəmiyyətli bayram idi, çünki ilk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi", – deyə missiya rəhbəri vurğulayıb.

İƏT Pİ-nin rəsmisi seçici fəallığına və xüsusilə qadınların aktivliyinə diqqət çəkib.

"Azərbaycan, nəhayət, 30 illik işğaldan sonra ərazi bütövlüyünü tam bərpa edib. Bu, bizi çox sevindirir", – deyən missiya rəhbəri işğaldan azad edilmiş ərazilərdə seçkiləri izləmək imkanı olmadığına görə təəssüfləndiyini bildirib.

## Məğlubiyyəti etiraf etmək də siyasi mədəniyyətdir

Prezident seçkilərində namizəd olmuş Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, həmçinin namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Zahid Oruc və Fuad Əliyev seçkilərin ertəsi günü, fevralın 8-də Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlmiş İlham Əliyevə zəng ediblər.

Namizədlərin hər biri demokratik, şəffaf və ədalətli şəkildə keçirilmiş seçkilərdə yenidən parlaq qələbə qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidentini səmimiyyətlə təbrik edib, səsvermənin nəticələrinin Azərbaycan xalqının dövlət başçısına olan inam və etimadının ifadəsi, ölkəmizin sosial-iqtisadi inkişafı və xalqımızın rifahı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə verilən yüksək qiymət və dəstəyin əyani təzahürü olduğunu bildiriblər.

Namizədlər budəfəki seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazisində keçirilməsinin mühüm tarixi hadisə olduğunu qeyd ediblər. Bunun əyani göstəricisi olaraq dövlət başçısının ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində yerləşən seçki məntəqəsində səs verməsinin böyük siyasi və rəmzi məna daşıdığı vurğulanıb.

Namizədlər İlham Əliyevə möhkəm cansağlığı, Azərbaycanın firavanlığı, yüksəlişi və qlobal aləmdə nüfuzunun daha da güclənməsi yolunda qarşıya qoyduğu bütün hədəflərə çatmağı arzulayaraq, xalqımızın əmin-amanlığı, rifahı və tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər diləyiblər.

İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı prezident seçkilərində iştirak edən namizədlər arasında konstruktiv dialoqa əsaslanan siyasi mədəniyyətin nümayiş etdirilməsini müsbət qiymətləndirərək seçkiqabağı təşviqat prosesi zamanı namizədlər tərəfindən səsləndirilmiş bir sıra təkliflərin nəzərə alınacağını qeyd edib.

Prezident seçkilərdə iştirak etmiş namizədlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

## Avropa İttifaqının lideri də İlham Əliyevi təbrik edib

Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək seçkilərdə qələbəsi münasibətilə onu təbrik edib.

Bu barədə o, "X" platformasında paylaşımında bildirib.

"Azərbaycan Prezidenti İlham Əliyevi yenidən seçilməsi münasibətilə təbrik etdim və yeni mandatı ilə bağlı ən xoş arzularımı ifadə etdim.

Həmçinin Azərbaycan və Avropa İttifaqı arasında əlaqələr və əməkdaşlıq, o cümlədən əlaqələnmə və enerji məsələləri müzakirə olundu.

Azərbaycan və Ermənistan arasında normallaşma ilə bağlı da əsaslı müzakirələr aparıldı. Sabit və firavan Cənubi Qafqazın inkişafı naminə Brüssel prosesi çərçivəsində üçtərəfli görüşü bərpa etməklə bağlı Azərbaycan tərəfinin öhdəliyini alqışlayıram", – deyə Aİ lideri paylaşımda vurğulayıb.

## Özbəkistan universitetlərində Azərbaycan dilinin tədrisi

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin uzunmüddətli apardığı işlər nəticəsində bu ölkənin bir sıra aparıcı universitetlərində Azərbaycan dilinin tədrisinə başlanılıb.

Mərkəzdən bildirilib ki, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti və Daşkənd Dövlət Şərqşünaslıq Universiteti Filologiya fakültəsinin tələbələri üçün aparılan dərslərdə Azərbaycan əlifbası, dilimizin fonetika, lüğət və qrammatikası, onun öyrənilmə metodikası tədris olunur. Dərsləri Azərbaycan dili üzrə mütəxəssis - pedaqoq Mətanət Xudiyeva aparır.

Mərkəz ilə Azərbaycan Dövlət Dil Komissiyasının Monitorinq Mərkəzi arasında əldə olunmuş razılığa əsasən, Özbəkistanın məqsədli universitetlərində Azərbaycan dili fənnini tədris etmək məqsədilə Mərkəzin baş mütəxəssisi, alim Mətanət Xudiyeva cari ilin yanvar ayından Daşkəndə ezam olunub.



Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti və Daşkənd Dövlət Şərqşünaslıq Universitetində aparılan Azərbaycan dili dərsləri tələbələr tərəfindən maraqla qarşılanıb.

Azərbaycan Mədəniyyət Mərkəzindən verilən məlumata görə, gələcəkdə Özbəkistan universitetlərində Azərbaycan dili ilə yanaşı, Azərbaycan ədəbiyyatı, tarixi fənlərinin tədrisi də həyata keçiriləcək.

## Məqsədimiz iki ölkəyə barışıq yoluna çıxmağa kömək etməkdir

Moskvanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında məqsədi iki ölkəyə barışıq və dinc qarşılıqlı fəaliyyət yoluna çıxmaq, regionda vəziyyətin dayanıqlı və sabit olması üçün etimad və əməkdaşlıq ab-havası yaratmaqda Azərbaycan və Ermənistana kömək etməkdir.

RF xarici işlər nazirinin müavini Mixail Qaluzin bunu "Rossiya 24" telekanalına müsahibəsində bildirib. O vurğulayıb ki, tərəflər regional kommunikasiyaların açılmasında mühüm nəticələr əldə ediblər.

Diplomat deyib: "Dəmir yolu əlaqəsinin necə bərpa oluna biləcəyi ilə bağlı ortaq məxrəcə gəlinib, konkret olaraq, söhbət Azərbaycanın əsas hissəsi ilə Ermənistanın Sünik vilayətindən keçməklə Azərbaycanın tərkib hissəsi olan Naxçıvan arasında dəmir yolundan gedir".

RF XİN-in başçısının müavini qeyd edib: "Sülh prosesinə, sülh sazişinin imzalanmasına gəldikdə, biz Ermənistan və Azərbaycana münasibətlərin normallaşdırılması üzrə bütün kompleks məsələlərin müzakirəsində fəal köməklik göstərməyə davam edirik".

O qeyd edib ki, Rusiya Bakı və İrəvana Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası ilə bağlı məsləhətləşmələr təklif edir, çünki Moskvada topoqrafik materiallar var: "Biz hər zaman sülh müqaviləsi üzrə danışıqlar üçün meydançamızı təqdim etməyə hazırıq. Ümid edirik ki, İrəvanda fəaliyyətləri Rusiya Federasiyasını bu prosesdən sıxışdırmağa, Cənubi Qafqazda mövcud güc balansını pozmaq və bununla da Rusiyanın qonşuluğunda daha bir qeyri-sabitlik mənbəyi yaratmağa yönəlmiş qeyri-regional oyunçuları cəlb etmək səyləri əvəzinə, üçtərəfli sazişlərin həyata keçirilməsinin normallaşmanın ən etibarlı yolu olduğu anlayışı üstünlük təşkil edəcək".

## Filarmoniyada Qara Qarayevin xatirəsinə həsr olunmuş konsert



Dahi Azərbaycan bəstəkarı, dünya musiqi xəzinəsinə bir çox dəyərli əsərlər bəxş etmiş Qara Qarayevin (1918–1982) anadan olmasının 106-cı ildönümü (5 fevral) münasibətilə mədəniyyət ocaqlarında tədbirlər keçirilir.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında da Qara Qarayevin xatirəsinə həsr olunmuş konsert təşkil edilib.

Konsertdən əvvəl musiqişünas Aysel Kərim bəstəkarın həyat və yaradıcılığı haqqında məlumat verib.

Konsertdə Xalq artisti Fəxrəddin Kərimovun bədii rəhbəri və baş dirijoru olduğu Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri çıxış edib. Solist vokalçı, Əməkdar artist Fəridə Məmmədova olub. Proqramda bəstəkarın əsərləri səsləndirilib.

## Tağıyev haqqında çoxseriyalı filmin çəkilişləri yekunlaşıb

Bakı Media Mərkəzinin istehsalı olan çoxseriyalı "Himayədar" filminin çəkilişləri yekunlaşıb.

Filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman və Zaur Qasımlı, rəssamı Vüsal Rəhimdir.

Ekran əsəri Hacı Zeynalabdin Tağıyevin vəfatının 100-cü ildönümü ilə əlaqədar çəkilib. Filmdə XIX əsrin sonu – XX əsrin əvvəlində Bakıda və bölgədə baş verən mühüm tarixi hadisələr də əks etdirilir.



Daha öncə Bakı Media Mərkəzinin yaydığı məlumatda da bildirildiyi kimi, "Himayədar" filminin on beş aylıq hazırlıq və çəkiliş dövründə rəssam komandası tərəfindən 150-dən çox əsas qəhrəmanın geyim eskizləri və geyimləri, 400-dən çox geyim növləri, 100 aksesuar – zərgərlik nümunələri hazırlanıb. Səkkiz seriyadan ibarət olması nəzərdə tutulan filmin çəkilişləri 70-dən çox məkanda aparılıb.

## TDT-nin baş katibi Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət edib

Prezident seçkilərini müşahidə etmək üçün Azərbaycana gələn Türk Dövlətləri Təşkilatının (TDT, mənzil-qərargahı İstanbulda yerləşir) baş katibi Kubanıçbek Ömüralıyev Bakıda Türk Mədəniyyəti və İrsi Fondunu (TMİF) ziyarət edib.



Kubanıçbek Ömüralıyev TMİF-in prezidenti Aktotı Raimkulova və fonda üzv dövlətlərin diplomatları ilə görüşüb.

Fonddan bildirilib ki, görüşdə Türk dünyasında inteqrasiya prosesləri və bu istiqamətdə Türk əməkdaşlıq təşkilatlarının koordinasiyalı fəaliyyətlərinin önəmindən bəhs olunub. TMİF ilə TDT arasında əlaqələrin daha da möhkəmləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Türk dövlətlərinin maddi-mənəvi irsinin təbliği, qorunması və bərpası sahəsində Türk Mədəniyyəti və İrsi Fondunun rolu vurğulanıb, o cümlədən "Türk dünyasının mədəni irsi haqqında" Konvensiyanın hazırlanması yüksək qiymətləndirilib.

## "Gənc istedadların musiqi dünyası"

### Rus Evində BMA yetirmələrinin konserti



Bakıdakı Rus Evində (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi – RİMM) Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Hüseynovanın sinfinin "Gənc istedadların musiqi dünyası" adlı konserti təşkil olunub.

Tədbiri Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov açaraq iştirakçıları salamlayıb.

Tədbirin kuratoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, BMA-nın baş müəllimi Alyona İnyakina musiqi sənətinin inkişafının müxtəlif mərhələlərinin xüsusiyyətlərindən, eləcə də konsertdə səsləndiriləcək əsərlərdən söhbət açıb.

Konsertdə Əməkdar artist Rəna Əliyeva, Akademik Opera və Balet Teatrının solisti Adil Axundov, beynəlxalq müsabiqələr laureatları Rəvan Mustafazadə, Namiq Səlimov, Fuad Əfəndiyev, Elşən Məmmədovun, eləcə də Könül Hüseynovanın sinfinin tələbələri – beynəlxalq müsabiqələrin laureatları Gülnar Ağayeva, Nurel Kərimova, Zəminə Kərimova, Nərminə Mürşüdzadə, Fidan Əmirova, Nəzrin Qulamova, Elvinə Yəhyayeva, Aysel İbrahimli, Tasura Hüseynova, Rasimə Abdullayeva, Fidan Yunus, Səkinə Quliyeva, Şəms Əskərova və Sara Mustafayeva çıxış ediblər.

## Rəssamlıq Akademiyasının müəllimi İngiltərədə mükafata layiq görülüb

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Bədii keramika, şüşə və metal kafedrasının müəllimi Zinaida Mirzəzadə İngiltərədə keçirilən sərgidə mükafata layiq görülüb.

Bu barədə Rəssamlıq Akademiyasından məlumat verilib. Bildirilib ki, bədii metalda stilizə üzərində çalışan rəssam "Qızıl zamanın istedadları" müsabiqəsində iki nominasiya üzrə qalib olub.

71 ölkədən rəssamların qatıldığı sərgidə Zinaida Mirzəzadənin metaldan işi – "Stonehenge" dekorativ asma əsəri II, rəngli qrafika nominasiyası üzrə "Uğura aparan yol əsəri isə" III yerə layiq görülüb.

"Qızıl zamanın istedadları" müsabiqəsində əsərlər 18 ölkənin təmsil olunduğu münsiflər heyəti tərəfindən seçilib.

Zinaida Mirzəzadə ölkəmizdə və xaricdə keçirilən bir sıra sərgilərin iştirakçısı və qalibidir.

## Kulinarlarımız dünya olimpiadasında mükafat qazanıblar

Azərbaycan kulinarları Almaniyanın Ştutqart şəhərində keçirilən (2–7 fevral) "İKA – Dünya Kulinariya Olimpiadası"nda uğurla iştirak ediblər.




Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə xüsusi olaraq olimpiada üçün yaradılmış komanda "fərdi iştirakçı" kateqoriyasının qənnadı incəsənəti üzrə iki bürünc medal və 6 diplom, eləcə də "ictimai keytrinq" kateqoriyası üzrə komanda yarışında diplom qazanıb.

DTA-dan bildirilib ki, dünya üzrə mötəbər kulinariya müsabiqələrindən sayılan olimpiadada ölkəmizi Milli Kulinariya Mərkəzinin dəstəyi və Dünya Aşpazlar Cəmiyyətləri Assosiasiyasının ("Worldchefs") assosiativ üzvü olan Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının (ACSA) təqdimatı ilə 9 aşpazdan ibarət heyət təmsil edib.

Milli komandanın təqdim etdiyi menyu ölkəmizin təbii biomüxtəlifliyini əks etdirməklə, eləcə də milli mətbəx mədəniyyətinin əsasları nəzərə alınmaqla hazırlanıb.

Müsabiqəyə təqdim olunan 2 menyuda Qafqaz şabalıdı, "Baltalı" düyüsü kimi beynəlxalq "Slou Fud" qastronomik turizm modelinə daxil edilən, məhz Azərbaycana məxsus biomüxtəliflik nümunəsi kimi tanınan məhsullar, o cümlədən zəfəran, Zirə pomidoru, nar kimi yerli məhsullardan istifadə edilib.

Müsabiqəyə təqdim edilən menyular dadlı, sağlam və dayanıqlı qida, tullantı olmadan və istifadə edilən hər bir məhsula xüsusi yanaşma ilə hazırlanma, xüsusi ölçülərə və biometrik formalara dəqiqliklə riayət edilmə, rəng amili də nəzərə alınmaqla səliqəli və estetik görünüş meyarları əsas götürülməklə qiymətləndirilib. Həmçinin hakimlər tərəfindən müəyyən edilmiş vaxt çərçivəsində komandanın iş prosesi, stresə davamlılıq, bərabər iş bölgüsü, mətbəxin təmizliyi, aşpazların şəxsi gigiyenası amilləri də nəzərə alınıb.

Tədbir çərçivəsində "Worldchefs"ə məxsus pavilyonda Azərbaycanın qastronomiyasını əks etdirən stend də quraşdırılıb. Stenddə ziyarətçilərə, o cümlədən qastronomiya mütəxəssislərinə ölkəmizin qastroturizm potensialı barədə məlumat verilib, Azərbaycan milli mətbəx nümunələrini dadmaq üçün şərait yaradılıb.

Stenddə əsasən Naxçıvan və Qarabağ mətbəxi, eləcə də Dünya İrs Siyahısında olan Şəki və Xınalıqla bağlı mətbəx nümunələri "Azərbaycanın UNESCO irsi üzrə qida ənənələri" tematikasında nümayiş etdirilib.

Dörd ildən bir Almaniyada təşkil olunan "İKA – Dünya Kulinariya Olimpiadası" kulinariya, qida, restoran və biznes sahələrində nüfuzlu beynəlxalq müsabiqə və sərgi kimi tanınır.

## Özbəkistan kitabxanalarına Azərbaycanla bağlı kitablar hədiyyə edilib

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanası, Turan kitabxanası və Özbəkistanın vilayətlərində yerləşən 14 mərkəzi və aparıcı kitabxanaya Azərbaycana dair zəngin kitab kolleksiyası hədiyyə edib.



AMM-dən bildirilib ki, Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasına 30 nüsxə, Daşkənd, Xarəzm, Nəvai, Buxara, Səmərqənd, Kaşkadərya, Sırxandərya, Cizzax, Sırdərya, Namanqan, Fərqanə, Əndican vilayəti, Qaraqalpaqıstan Muxtar Respublikası informasiya-kitabxana mərkəzi, habelə Səmərqənd şəhərindəki Puşkin adına, Kokand şəhərindəki Amiriy kitabxanası olmaqla hər bir kitabxanaya 20 adda, ümumilikdə isə 400 nüsxə kitab və elektron nəşr hədiyyə olunub.

Sözügedən kolleksiyada Azərbaycanın tarixinə, dövlətçiliyinə, mədəniyyətinə dair Azərbaycan, özbək və rus dillərində kitablar, o cümlədən müasir Azərbaycan ədəbiyyatına dair nəşrlər yer alıb.

Qeyd edək ki, yanvarın 31-də Azərbaycana dair zəngin kitab kolleksiyası Özbəkistanın regionlarındakı 14 mərkəzi kitabxanaya çatdırılması məqsədilə Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasında təqdim olunub. Hədiyyə nəşrlərin Özbəkistan Milli Kitabxanasında sərgisi təşkil edilib.

### Teatrlardan qısa xəbərlər

## Pantomima teatrı yubileyə hazırlaşır



Bu il Dövlət Pantomima Teatrının yaranmasının 30 illiyidir. Yubiley münasibətilə mimçilər teatrsevərlərə ötən bu illər ərzində repertuarlarında olan maraqlı səhnə nümunələrindən çələng hazırlayırlar.

May ayına nəzərdə tutulan tədbirdə tamaşaçılar köhnə-yeni mimçiləri bir səhnədə görmək imkanı qazanacaqlar.

Teatrda paralel olaraq yeni tamaşanın məşqi də gedir. Sənət ocağının bədii rəhbəri və baş rejissoru Xalq artisti Bəxtiyar Xanızadə öz ənənəsinə sadiq qalaraq tam hazır olmayınca tamaşa barədə danışmasa da, onun yubiley ilinə töhfə olacağını dedi.

## Aktrisanın 100 illik yubiley gecəsi keçiriləcək

Fevralın 10-da görkəmli səhnə xadimi, Xalq artisti Firəngiz Şərifovanın 100 illiyi ilə əlaqədar Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında tədbir keçiriləcək.



Teatrdan verilən məlumata görə, xatirə gecəsində sənətkarın zəngin yaradıcılıq yoluna nəzər salınacaq, zaman-zaman onunla bir səhnəni paylaşmış sənətkarlar xatirələrini bölüşəcəklər.

Xatirə gecəsində teatrın repertuarındakı maraqlı səhnə işlərindən "Dəli yığıncağı" tamaşası da göstəriləcək.

## Milli Dram Teatrında yeni tamaşa

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Çingiz Aytmatovun məşhur "Əsrə bərabər gün" romanı əsasında hazırlanan eyniadlı tamaşanın məşqlərinə başlanılıb.



Səhnə əsərinə teatrın bədii rəhbəri Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə quruluş verir. Tamaşada altmışa yaxın aktyorun rol aldığı bildirilir.

"Əsrə bərabər gün" tamaşasının premyerasının martda keçirilməsi planlaşdırılır.

## "Əlləddinin sehrli çırağı" səhnədə "yanır"

Azərbaycan Dövlət Kukla Teatrında "Əlləddinin sehrli çırağı" tamaşasının premyerası olub. Tamaşanın səhnələşdirmə və quruluş müəllifi Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Əməkdar artist Vüqar Camalzadədir.



Birhissəli uşaq tamaşasında rolları teatrın aparıcı səhnə ustaları – Əməkdar mədəniyyət işçisi Aslan Fətullayev, aktyorlar Rəhim Rəhimov, Elgün Həmidov, Selcan Müseyibova, Ramiz Qəmbərov, Yasin Abbasov, Vüqar İsmayılov, Elnur Xəlilov ifa edirlər.

Nağılda da olduğu kimi, əhvalatın qəhrəmanı Əlləddin adlı kasıb oğlandır. Uşaq vaxtı daha tənbəl olan, ən yaxın dostu saydığı meymunu ilə gəzib-dolaşan Əlləddin məşhur kəndirbaz kimi tanınır. Elə bütün məsələ də bundan sonra başlayır. Yolu Bağdad şəhərinə düşür, onun oyununu izləməyə gələn Şahzadəni görür və onunla dost olmağa qərar verir. Özü istəmədən tamahkar Vəzirin alətinə çevrilir və nəhayət, sehrli çırağı tapır və sonda qalib gəlir. Bu qəlibiyyətdə sehrli güc öz işini görür. Sehrli çıraqda yaşayan Cin Əlləddinə onu azad etməsi müqabilində üç arzusunu yerinə yetirəcəyini vəd edir. Bundan sonra Əlləddin xəyalını qurduğu sərvətə qovuşur və bütün arzularını həyata keçirir.

Tamaşanın növbəti nümayişi fevralın 10-da olacaq.

№11 (2076)
9 fevral 2024
www.medeniyyet.az

# 30 ildən sonra – azad torpaqlarda ilk seçki



Xəbər verdiyimiz kimi, fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilib. Bu seçkilər Azərbaycanın müstəqillik tarixində ilk dəfə ölkənin bütün ərazisini əhatə edib. 30 illik həsrətdən sonra Qarabağ və Şərqi Zəngəzura – doğma yurdlarına qayıtmış keçmiş məcburi köçkünlər, eyni zamanda həmin ərazilərdə dövlət tərəfindən aparılan yenidənqurma və bərpa işlərində iştirak edən vətəndaşlarımız səs veriblər.

Seçki günündə əsas diqqət Xankəndi şəhərinə yönəlib. 2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı ilə erməni separatçı və terrorçularından təmizlənən Xankəndi şəhərindəki 122 saylı seçki dairəsinin 14 saylı məntəqəsi qapılarını şanlı Zəfərimizin memarı, Ali Baş Komandan, Prezident İlham Əliyevə və ailə üzvlərinə açıb. Dövlət başçısı və ailə üzvlərinin Xankəndi şəhərində səs verməsi böyük tarixi-siyasi məna kəsb edirdi. Çünki müzəffər Ali Baş Komandan ötən ilin 15 oktyabr tarixində Xankəndidə bayrağımızı ucaltmaqla respublikamızın 86,6 kvadrat kilometr ərazisində suverenliyimizin tam bərpa olunduğunu bütün dünyaya göstərdi.

***

Növbədənkənar prezident seçkiləri 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsinin Şuşa şəhərində yaradılmış 105 saylı seçki məntəqəsində seçicilərin yüksək fəallığı ilə keçib. Səhər saatlarından Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binasındakı 105 saylı seçki məntəqəsinə üz tutan seçicilər konstitusion hüquqlarından istifadə edərək səs veriblər.



***

Zəngilan rayonunun Ağalı kəndində seçicilər yüksək əhval-ruhiyyə ilə seçkiyə qatılıblar. 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə işğaldan azad edilən Zəngilan ərazisindəki məntəqələrdən olan 33 saylı seçki məntəqəsi Ağalı kənd tam orta məktəbində fəaliyyət göstərib.

DSK sədri Əli Mönsümovun verdiyi məlumata görə, məntəqə üzrə 1000-ə yaxın seçici qeydə alınıb ki, onlardan 600-dən çoxu Ağalı kəndində yaşayan sakinlərdir. Həmçinin 33 saylı seçki məntəqəsinə yaxın ərazilərdə çalışan vətəndaşlar da bu məntəqədə səsvermə hüququndan istifadə ediblər.







Zəngilan-Qubadlı seçki dairəsi üzrə işğaldan azad olunan digər məntəqələrdə də fəallıq müşahidə edilib. Zəngilanın Alıbəyli kəndi ərazisində yerləşən 61 saylı seçki məntəqəsində seçki keçirilib. Məntəqə üzrə ümumilikdə qeydiyyata alınan 615 seçici rayon ərazisində çalışan işçilərdir.

***

Suqovuşan qəsəbəsində yaradılan 97 saylı Tərtər-Naftalan-Goranboy seçki dairəsinin 58 saylı seçki məntəqəsində də səsvermə keçirilib.

Bu məntəqəyə həm rayonun Talış kəndinin sakinləri, həm də Suqovuşan qəsəbəsində tikintidə çalışanlar gələrək 30 ildən sonra işğaldan azad edilmiş ərazilərdə keçirilən prezident seçkilərində böyük qürur və sevinc hissi ilə səs veriblər.

Talış kənd sakinləri 91 yaşlı Ömərov Paşa Ömər oğlu və həyat yoldaşı, 86 yaşlı Ömərova Ulduzxan Məhəmməd qızı səhhətləri ilə əlaqədar məntəqəyə gələ bilmədiklərinə görə 97 saylı Tərtər-Naftalan- Goranboy seçki dairəsinin 58 saylı seçki məntəqəsinin əməkdaşları tərəfindən onların evinə daşınan seçki qutusu aparılıb. Hər iki ahıl konstitusion hüquqlarından istifadə edərək layiq bildikləri namizədə səs veriblər.







***

İşğaldan azad olunduqdan sonra sürətlə yenidən qurulan Füzuli şəhərində də seçki həyəcanı yaşanıb. Ötən ilin avqust ayında doğma yurda qayıtmış keçmiş məcburi köçkünlər böyük fərəh hissi ilə şəhərdə yaradılmış 3 məntəqədə səs veriblər.



Hazırda Füzuli şəhərinin yenidən qurulmasında iştirak edən inşaat işçiləri də seçki hüququndan yararlanıblar.



***

Növbədənkənar prezident seçkiləri işğaldan azad olunan Cəbrayılda da seçicilərin aktivliyi ilə keçib. 120 saylı Cəbrayıl-Qubadlı DSK-nın sədri Musa Quliyevin verdiyi məlumata görə, dairədəki 83 seçki məntəqəsi üzrə, ümumilikdə, 55 mindən artıq seçici qeydiyyata alınıb. Cəbrayıl şəhəri ərazisində fəaliyyət göstərən 80 saylı seçki məntəqəsində və rayonun Soltanlı kəndi ərazisindəki Araz Vadisi İqtisadi Zonasındakı 81 saylı seçki məntəqəsində 1500 nəfərdən artıq seçici səs verib. Qeydə alınan seçicilər işğaldan azad olunan ərazilərin yenidən qurulmasında iştirak edən şəxslərdir.

Bildirilib ki, dairə üzrə 11 məntəqə Biləsuvar rayon ərazisindəki məcburi köçkün şəhərciyində, bir seçki məntəqəsi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində, qalan seçki məntəqələri isə respublikanın 54 rayon və şəhərində yerləşir.

***

İşğaldan azad olunmuş Laçın şəhərindəki 105 saylı seçki məntəqəsində seçici fəallığı müşahidə olunub. Laçın şəhərində, ümumilikdə, 5 seçki məntəqəsi fəaliyyət göstərib. Bunlardan 3-ü şəhərin mərkəzində, digər 2 məntəqə isə Zabux və Qorçu kəndlərindədir.

Zabux kəndindəki 121 saylı Laçın DSK-nın 108 saylı seçki məntəqəsində ərazidə tikinti-quruculuq işlərində çalışan vətəndaşlar da səs veriblər. Məntəqə üzrə 1494 seçici qeydiyyata alınıb ki, onlardan da 549 nəfəri Zabux sakinidir.



***

Növbədənkənar prezident seçkiləri Xocalı rayonu ərazisində iki məntəqədə keçirilib. 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsinin 106 saylı məntəqəsi Xocalı rayonunun Təzəbinə kəndində, 107 saylı məntəqəsi isə Əsgəran qəsəbəsində yaradılıb.

Səsverməyə qatılan seçicilər məntəqələrdə yaradılan şəraitdən razılıq edib, işğaldan azad edilmiş ərazidə səs verdikləri üçün qürur hissi keçirdiklərini dilə gətiriblər.

***

Növbədənkənar prezident seçkiləri Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərində 118 saylı seçki dairəsinin üç məntəqəsində keçirilib. 57 saylı məntəqə Ağdam şəhərində yeni istifadəyə verilmiş Konqres Mərkəzində, 58 saylı məntəqə "Azərenerji" ASC-nin binasında, 59 saylı məntəqə isə Kəngərli kəndində təşkil edilib.

***

124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsinin Hadrut qəsəbəsində yaradılmış 108 saylı seçki məntəqəsində də seçici fəallığı müşahidə olunub. Məntəqə üzrə qeydə alınan 500-dən çox seçici səhər saatlarından etibarən seçki məntəqəsinə gəlib öz konstitusion hüquqlarından istifadə ediblər.

***

Prezident seçkiləri işğaldan azad olunmuş bütün ərazilərdə olduğu kimi, Ağdərə şəhərində də yüksək səviyyədə təşkil edilib. 97 saylı Tərtər-Naftalan-Goranboy seçki dairəsinin Ağdərə şəhərindəki 59 saylı seçki məntəqəsinin sədri Mahir Səmədov bildirib ki, məntəqədə seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçicilər fevralın 7-si səhər saatlarından başlayaraq məntəqəyə gəlib, sərbəst və azad şəkildə öz vətəndaşlıq borclarını yerinə yetiriblər.

Bildirilib ki, Tərtər-Naftalan-Goranboy seçki dairəsi üzrə iki seçki məntəqəsi işğaldan azad edilmiş ərazilərdə yerləşir. 58 saylı seçki məntəqəsi Suqovuşan qəsəbə tam orta məktəbində, 59 saylı seçki məntəqəsi isə Ağdərə şəhər Mədəniyyət evində yaradılıb.

**Hazırladı: N.Məmmədli**

## Gəncə Filarmoniyasında yeni layihə

### İlk tədbir Aşıq Ələsgərə həsr olunacaq





Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında ilk dəfə "Musiqi kimliyimiz" adlı layihə həyata keçiriləcək.

Filarmoniyadan verilən məlumata görə, layihə çərçivəsində çoxəsrlik keçmişə malik aşıq sənətinə, dastanlara həsr olunmuş gecələr təşkil ediləcək. Məqsəd milli-mədəni dəyərlərimizi gənc nəslə çatdırmaqdan ibarətdir.

Layihə üzrə ilk ədəbi-bədii gecə martın 2-də saat 19:00-da Azərbaycan Aşıqlar Birliyi ilə birgə təşkil ediləcək. Tədbir Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, saz-söz ustadı Aşıq Ələsgərin xatirəsinə həsr olunacaq.

## Biləsuvarda Milli Qəhrəmanın doğum günü qeyd edilib

Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin (RMİ) dəstəyi və Biləsuvar rayon Nihad Babayev adına Xırmandalı kənd Uşaq incəsənət məktəbinin təşkilatçılığı ilə Milli Qəhrəman Mübariz İbrahimovun (1988-2010) doğum günü (7 fevral) qeyd olunub.



Biləsuvar rayonunda yerləşən Mübariz İbrahimovun Xatirə Muzeyində təşkil olunan tədbirdə Milli Qəhrəmanın atası Ağakərim İbrahimov, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, Xırmandalı kənd Uşaq incəsənət məktəbinin kollektivi iştirak edib. Tədbirdə qəhrəman şəhidin döyüş yolundan söhbət açılıb, onun haqqında xatirələr dilə gətirilib.

Sonda Xırmandalı kənd Uşaq incəsənət məktəbi şagirdlərinin Mübariz İbrahimova həsr etdikləri rəsmlərdən ibarət sərgiyə baxış olub.

## Dahi bəstəkarın xatirəsi yad olunub

Astara rayon Heydər Əliyev Mərkəzində dünyaşöhrətli bəstəkar, pedaqoq, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Qara Qarayevin (1918–1982) anadan olmasının 106-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.



"Qara Qarayev dünya musiqi mədəniyyətinin nadir simalarındandır" adlı tədbirdə bəstəkarın həyat və yaradıcılığından bəhs edən film nümayiş olunub.

Çıxışlarda Qara Qarayevin bəstəkar və müəllim kimi Azərbaycan musiqi mədəniyyətinə böyük töhfələr verdiyi vurğulanıb. Ulu öndər Heydər Əliyevin görkəmli mədəniyyət xadimlərinə, o cümlədən Qara Qarayevə göstərdiyi diqqət və qayğıdan söz açılıb.

Sonda şagirdlərin sualları cavablandırılıb.

## Xocalıda kütləvi məzarlıq tapılıb



İşğaldan azad olunan Xocalı rayonunda kütləvi məzarlıq aşkar edilib.

Əsgəran qalasının yaxınlığında aşkarlanan məzarlıqda azı 8 insan qalığı var. Qalıqların 1992-ci ilin fevralında Xocalı soyqırımı zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilir.

Müvafiq qurumların nümayəndələri yerli və xarici jurnalistlərin iştirakı ilə kütləvi məzarlığa baxış keçiriblər.

Xatırladaq ki, Azərbaycanın ötən il Qarabağda apardığı lokal xarakterli antiterror tədbirləri zamanı ələ keçirilən, 1990-cı illərin əvvəllərində Qarabağda qanunsuz erməni silahlı birləşmələrinin üzvü olan Rəşid Beqlaryan dindirilərkən 1992-ci ilin fevralında Xocalı sakinlərinin qətlində iştirakçı olmasını və hadisələr zamanı qətlə yetirilənlərdən 8 nəfərin Əsgəran qəsəbəsində, Qarqar çayının sol sahilində, Əsgəran qalasının ətrafında basdırıldığını etiraf etmişdi.

## Muxtar respublikanın 100 illiyi münasibətilə elmi konfrans

AMEA-nın Tarix və Etnologiya İnstitutu Azərbaycanın sovet dövrü tarixi şöbəsinin təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikası 100 il: uğurlar və perspektivlər" mövzusunda respublika elmi konfransı keçirilib.

İnstitutun direktoru tarix elmləri doktoru, professor Kərim Şükürov qeyd edib ki, Naxçıvan Azərbaycanın çoxəsrlik zəngin tarixində layiqli yer tutub, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayıb. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, ədəbiyyatının, mədəniyyət və elminin tərəqqisinə töhfələr verib.

Tarix elmləri doktoru, professor İkram Ağasiyev "1920–1924-cü illərdə "Naxçıvan məsələsi" və Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-in yaradılması" adlı məruzə ilə çıxış edib. Bildirilib ki, 1920-ci ilin 28 aprelində Cümhuriyyətin XI Qırmızı Ordu tərəfindən işğalından sonra Naxçıvan məsələsi RSFSR ilə Ermənistan və Türkiyə ilə RSFSR arasında danışıqlar mövzusuna çevrilib. Həmin ilin iyununda Naxçıvan əhalisini Ermənistanın hərbi təcavüzündən qorumaq üçün bölgədə türk qoşun hissələri yerləşdirilib. Bir ay sonra Rusiyanın XI Ordu qüvvələri Naxçıvana göndərilib və burada bolşevik hakimiyyəti qurulub.

1920-ci il dekabrın 2-də Sovet Rusiyası ilə Ermənistan arasında bağlanmış hərbi-siyasi sazişlə Naxçıvan məsələsi yeni bir mərhələyə qədəm qoyub. Həmin sazişə əsasən, qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salınıb. Bununla da Naxçıvanın muxtariyyət məsələsi gündəmə gəlib. Nəticədə, 1921-ci il martın 16-da Moskvada RSFSR ilə Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə imzalanıb. Müqavilə hazırlanarkən Türkiyə Naxçıvan məsələsinə böyük əhəmiyyət verdi. Atatürk Naxçıvanı "Türk qapısı" adlandırdı. Müqavilənin 3-cü maddəsinə görə, tərəflər sənədə əlavədə nəzərdə tutulan sərhədlər daxilində, Azərbaycanın himayəsi altında, Naxçıvan vilayətinin muxtar ərazi olmasına razılıq verirdilər, bu şərtlə ki, Azərbaycan bu ərazini başqa dövlətə güzəştə getməyəcək...

1923-cü ildə muxtar diyar adlanan Naxçıvan bir il sonra muxtar respublika statusu aldı. 9 fevral 1924-cü ildə Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı.

Konfransda daha sonra tarix üzrə fəlsəfə doktoru, dosentlər Kamran İsmayılov, Əzizə Nəzərli, Alı Balayev, Nigar Axundova, Əsəd Qurbanlı və başqalarının məruzələri dinlənilib. Məruzələr ətrafında müzakirələr aparılıb.

# Mədəniyyət xadimləri seçkidə

## "Biz seçimimizi çoxdan etmişik, bu gün onu təsdiq etdik"

Yüksək seçici qatılımı ilə müşayiət olunan 7 fevral növbədənkənar prezident seçkilərində mədəniyyət, incəsənət xadimləri də fəal iştirak edirlər. Müxtəlif ölkələrdə yaradıcılıq fəaliyyəti göstərən azərbaycanlı sənətçilər də müstəqillik tariximizin ən əlamətdar seçkisi ilə bağlı təəssüratını bölüşüblər.

"Prezident seçkiləri yüksək səviyyədə və demokratik keçirilir. Mən müşahidə etdim ki, Azərbaycan xalqı bir daha həmrəylik göstərir" – bu sözləri Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə söyləyib.

"Bu gün Azərbaycan Bəstəkarlar İttifaqının bütün üzvləri səsvermədə iştirak edir. Xalqımızın seçkilərdə ruh yüksəkliyi ilə iştirakı əsas amildir. Təkcə Azərbaycanda yox, vətənimizdən kənarda yaşayan həmyerlilərimiz də seçkilərdə fəal iştirak edirlər", – deyə o bildirib.

"Torpaqlarımız mənfur düşmənin işğalından azad olunub. Fəxr edirik ki, həmvətənlərimiz işğaldan azad olunan ərazilərimizdə də səs verirlər" – bunu isə Xalq artisti, tarzən Ramiz Quliyev deyib.

"60 il də yaxındır ki, seçkilərdə iştirak edirəm. Həyatımda ilk dəfədir ki, seçki məntəqəsində belə növbə görürəm. Bu o deməkdir ki, seçkilər xalq tərəfindən böyük coşqu ilə qarşılanır" – Xalq şairi Vahid Əziz təəssüratını belə ifadə edib.

"30 ildən sonra ilk dəfə bütöv Azərbaycan səs verir. Səhər efirdə gördəndə ki, Xankəndidə, Şuşada səsvermə başlayıb gözlərim doldu. Hər bir azərbaycanlı üçün bundan böyük xoşbəxtlik yoxdur", – deyə o əlavə edib.



***

Bu gün bir azərbaycanlı olaraq hamımız çox sevincliyik. Çünki ölkəmizdə prezident seçkiləri keçirilir. Biz Azərbaycanda olmasaq da, ikinci Vətənimiz olan qardaş Türkiyədə yaşayırıq. Vətənimizdə baş verən bütün hadisələrlə yaxından maraqlanırıq.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Azərbaycanın Əməkdar incəsənət xadimi, aktrisa-rejissor Məlahət Abbasova ifadə edib.

İstanbulda təşkil edilən məntəqədə səs verən sənətçi deyib: "Bizim üçün bu gün olduqca əlamətdardır. Biz bu gün burada bir "dəmir yumruq" ətrafında birləşmişik. Azərbaycan uğurlu daxili və xarici siyasəti, yüksək diplomatik fəaliyyəti ilə 44 günlük Vətən müharibəsindən qalib ölkə olaraq ayrıldı. Bu, Azərbaycanın gücünü bütün dünyaya nümayiş etdirdi. Prezident demək müstəqil Azərbaycan Respublikası, güclü Ordu, xoşbəxt xalq deməkdir".

***

"Bu gün Azərbaycan xalqı üçün əsl bayramdır" – bu sözləri Azərbaycanın Xalq artisti, Rusiya Böyük Teatrının solisti Elçin Əzizov jurnalistlərə müsahibəsində söyləyib (APA).

"Artıq bir neçə ildir mən Azərbaycanda keçirilən seçkilərdə Vətəndən kənarda iştirak edirəm. Bu gün bütün Azərbaycan xalqı üçün əsl bayramdır. Çünki prezident seçkiləri həm də azad olunmuş torpaqlarımızda keçirilir. Biz öz seçimimizi çoxdan etmişik. Bu gün isə bu seçimi təsdiq etdik", – deyə o bildirib.

"Əminəm ki, bu gün hər bir Azərbaycan vətəndaşı öz prezidentinə səs verəcək" – bunu isə Rusiya Böyük Teatrının daha bir azərbaycanlı solisti, Xalq artisti Dinara Əliyeva deyib.

"Bu gün əlamətdar gündür və mən çox şadam ki, bir Azərbaycan vətəndaşı kimi Moskvada olarkən öz səsimi verə bildim. Vətənim Azərbaycana rifah arzu edirəm və hər kəsin düzgün seçim edəcəyinə ümid edirəm", – deyə opera müğənnisi qeyd edib.

# Əməkdar incəsənət xadimi, musiqişünas Aida Tağızadənin 90 illiyi qeyd edilib



Fevralın 6-da Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) tanınmış musiqişünas, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aida Tağızadənin 90 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib. Bu barədə ABİ-dən məlumat verilib.

İttifaqın sədri Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə giriş sözündə Aida Tağızadənin yaradıcılıq yolundan, geniş elmi irsindən söhbət açıb. ABİ sədri musiqişünasın Azərbaycan bəstəkarlarının yaradıcılığının tədqiqi ilə bağlı elmi, eləcə də pedaqoji fəaliyyətini yüksək qiymətləndirib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli də Aida xanımın müəllim kimi fəaliyyətini xüsusi vurğulayaraq onun musiqişünaslığa elminə verdiyi töhfələrdən danışıb.

Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova və sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı da çıxışlarında yubilyarın nəinki Azərbaycanda, həmçinin ölkəmizin hüdudlarından uzaqlarda da istedadlı tələbələrinin fəaliyyət göstərdiyini vurğulayıblar.

ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova "Aida Tağızadənin Azərbaycan musiqi elminə verdiyi töhfələr", Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zümrüd Dadaşzadənin "Aida Tağızadənin elmi fəaliyyəti" mövzularında məruzələri dinlənilib.

Konfransın musiqi hissəsində Aida Tağızadənin yaradıcılığını araşdırdığı bəstəkarlardan Soltan Hacıbəyovun "Adajio" və Cövdət Hacıyevin "Ballada" əsərləri səslənib. Əsərləri Xalq artisti Ülviyyə Hacıbəyova və S.Hacıbəyov adına Sumqayıt Musiqi Kollecinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, beynəlxalq musiqi müsabiqələr laureatı Səbinə Mehdiyeva ifa ediblər.

Sonda Aida Tağızadə musiqi mədəniyyətinin, musiqişünaslığın inkişafı naminə gördüyü işlərdən danışıb, tədbirin təşkilatçılarına və iştirakçılara dərin təşəkkürünü bildirib.

# Görkəmli kinorejissorun 100 illiyində məzarı ziyarət olunub

Fevralın 6-da Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, kinorejissor, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Şamil Mahmudbəyovun (1924–1997) anadan olmasının 100-cü ildönümü tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyinin məsul əməkdaşları, mədəniyyət və incəsənət xadimləri sənətkarın məzarını ziyarət ediblər.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Camil Quliyev çıxış edərək ölkəmizdə kino sahəsinin inkişafında Şamil Mahmudbəyovun xüsusi rolu olduğunu bildirib.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu görkəmli sənətkarın respublikamızda kinematoqrafiyanın inkişafına verdiyi töhfələrdən danışıblar. Qeyd olunub ki, Mədəniyyət Nazirliyi və ARKA-nın dəstəyi ilə 100 illik yubileyi ərəfəsində Şamil Mahmudbəyovun məzarüstü daşı yenilənib.

Xalq artistləri Oqtay Mirqasımov, Şəfiqə Məmmədova, Xamis Muradov və prodüser Rasim Həsənov rejissor haqqında xatirələrini bölüşüblər.




Qeyd edək ki, Şamil Mahmudbəyov "Qaraca qız", "Romeo mənim qonşumdur", "Şərikli çörək", "Həyat bizi sınayır" və s. filmlərə quruluş verib. Kinorejissor "Şərikli çörək" filminə görə yaradıcı heyətlə birlikdə Azərbaycan Dövlət mükafatına layiq görülüb.

# "Qonağımız var" – tanınmış müğənnilərlə görüşlər

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin "Qonağımız var" layihəsi davam edir. Layihə çərçivəsində daha bir neçə sənətçi ilə mədəniyyət ocaqlarında görüşlər təşkil edilib.

Mərdəkan Mədəniyyət Sarayında Xalq artisti, müğənni və bəstəkar Tünzalə Ağayeva ilə görüş keçirilib.

Müğənninin həyat və fəaliyyəti haqqında məlumat verilib, yaradıcılıq uğurlarından söhbət açılıb. Tünzalə Ağayeva repertuarından "Sevgi var", "Gülbahar", "Hədiyyə", "Bu gün hər şey yaxşı olacaq", "Bir də baxım bu dünyaya" kimi sevilən mahnıları ifa edib. Tamaşaçılarla səmimi ünsiyyət yaradan sənətçi onların suallarını cavablandırıb. Görüş "Səma" rəqs kollektivinin müşayiəti ilə müğənninin ifasında "Mən azərbaycanlıyam" mahnısı ilə sona çatıb.

***

Suraxanı rayon Heydər Əliyev Mərkəzində Xalq artisti, müğənni Nazpəri Dostəliyeva ilə görüş olub.

Tamaşaçıların alqış sədaları altında səhnəyə dəvət olunan Xalq artisti həyat və sənət fəaliyyəti haqqında danışıb. Sonra repertuarından "Nə olar, Allahım, ayırma bizi", "Dilbərim", "Bağışla, ana", "Yar qadanı alımmı", "Güllüm", "Azərbaycan" və digər sevilən mahnılarını ifa edib. Müğənni tamaşaçıların suallarına da cavablandırıb, onlarla xatirə şəkilləri çəkdirib.





***

Maştağa qəsəbəsindəki H.Abbasov adına Mədəniyyət Mərkəzində isə Xalq artisti, müğənni Brilliant Dadaşova ilə görüş keçirilib. Müğənni "Bayatılar", "Dərdimdən öləcəksən", "Hər şey gözəldir", "Yandırdın qəlbimi", "Üzüm" kimi populyar mahnılarını səsləndirib.

Aparıcı Xalq artistinin həyat və sənət yolu haqqında məlumat verib. Sonda müğənni "Aysel" rəqs ansamblının müşayiəti ilə "Yaşa, Azərbaycan!" mahnısını ifa edib.

***

Layihənin daha bir qonağı Əməkdar artist, müğənni Ədalət Şükürov olub. "Aysel" rəqs qrupunun çıxışından sonra müğənni tamaşaçıların alqışları ilə səhnəyə dəvət edilib. Ədalət Şükürov həyat və fəaliyyəti haqqında danışıb, "Qoca çinar", "Bir yaz axşamı", "İtirdim" mahnılarını ifa edib.

O daha sonra tamaşaçıları maraqlandıran sualları cavablandırıb. Görüş müğənninin ifasında "Azərbaycan" mahnısı ilə başa çatıb.

***

Layihə çərçivəsində müğənni Zamiq Hüseynovla da görüş keçirilib. Aparıcı müğənni haqqında məlumat verdikdən sonra Zamiq Hüseynov "Səni sevirəm", "Var ol", "Kaman" mahnılarını səsləndirib. Musiqili görüşün sonunda "Səma" rəqs kollektivinin müşayiəti ilə müğənni "Azərbaycan" mahnısını ifa edib.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (98)

**2002-ci il 9 mart**

Prezident Heydər Əliyev Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Yuli Qusmana respublikanın "Xalq artisti", muzey işinin təşkili və inkişafındakı xidmətlərinə görə Aybəniz Vəkilovaya "Əməkdar mədəniyyət işçisi" fəxri adlarının verilməsi haqqında fərmanlar imzalayıb.

**2002-ci il 19 mart**

Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) Bakı şəhərindəki uşaq evlərində tərbiyə alan, eləcə də qaçqın, kimsəsiz və şəhid ailələrindən olan uşaqlar üçün təşkil edilən Novruz şənliyində iştirak edib.

**2002-ci il 21 mart**

Bakıda Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində iştirak edib.

**2002-ci il 2 aprel**

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Xalq artisti, pianoçu Tamilla Zahid qızı Mahmudovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. Xalq artistinə yubileyi (70 yaşı - red.) münasibətilə təbrik məktubu göndərib.

**2002-ci il 22 aprel**

Respublika Sarayında Azərbaycanda Rusiya Federasiyası Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimində iştirak edib.

Fasilə zamanı səhnə arxasına gələrək Rusiyanın mədəniyyət naziri M.Şvıdkoy, dirijor V.Fedoseyev və nümayəndə heyətinin digər üzvləri ilə görüşüb.

*"...Otuz il bundan əvvəl, 1972-ci ilin sentyabrında da Azərbaycanda Rusiya Federasiyası Mədəniyyəti Günləri keçirilmişdi. O vaxt biz Sovet İttifaqının tərkibində idik. Gözəl kollektivlər idi, təxminən 250-300 nəfər gəlmişdi. Musiqiçilər də, teatr xadimləri, müğənnilər, şairlər də var idi. Əvvəlcə Bakıda çıxışlar oldu, sonra isə bölgələrə getdilər, bağlanış üçün yenidən Bakıya qayıtdılar. O vaxt bizim belə sarayımız yox idi. Sumqayıtda, Gəncədə, Neft daşlarında çıxış edirdilər... Bax o vaxt sizin orkestr burada çıxış etmişdir, mən də konsertdə olmuşdum. Yeri gəlmişkən, sonralar mən Moskvada yaşayarkən də konsertlərinizi dinləyirdim...*

*İncəsənətin müxtəlif növləri var. Simfonik musiqi isə incəsənətin çox mürəkkəb, çətin növüdür. Mən burada sovet Azərbaycanının rəhbəri olanda filarmoniyaya gedirdim, simfonik musiqini çox sevirəm. Orada konsertlər olurdu, Niyazi və digər dirijorlar çıxış edirdilər. Gördüm ki, rəhbər işçilərimiz bu konsertdə yoxdur. O zaman mən elan etdim ki, hər cümə axşamı günü axşam saat 7-də filarmoniyada simfonik musiqidən ibarət konsertə gəlmək lazımdır. Birinci dəfə gəlib gördüm ki, canlarını dişlərinə tutub oturublar. Biz Niyazi və Janna Dozortseva ilə razılaşdıq ki, Dozortseva hər dəfə konsertə gəlib simfonik musiqidən danışacaq, sonra konsert başlanacaqdır. Bundan sonra onlar musiqini daha yaxşı qavramağa başladılar... 1982-ci ilin axırınadək, mən burada işlədiyim müddətdə belə etdim, sonra hər şey pozuldu. Əlbəttə, indi, demokratiya şəraitində insanları məcbur edə bilmərəm... Amma görürəm, məcbur etmək lazım da deyildir. Doğrudur, adətən, rəhbər işçilər əyləşən boş yerlər də görürdüm..."*.

**2002-ci il 30 aprel**

Türkiyənin Trabzon şəhərinə səfəri (Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin zirvə görüşü) gedişində Mustafa Kamal Atatürk muzeyini ziyarət edib.

**2002-ci il 1 may**

Görkəmli mədəniyyət xadimi, bəstəkar, SSRİ Xalq artisti Rauf Hacıyevin anadan olmasının 80 illiyi haqqında sərəncam imzalayıb.

***

Görkəmli kinorejissor Rasim Ocaqova fərdi təqaüdün verilməsi haqqında sərəncam imzalayıb.

**2002-ci il 2 may**

Prezident Sarayında Bakıda keçirilən "Azərbaycanın milli-mədəni və təbii irsinin qorunub saxlanılması – Milli parklar proqramı" beynəlxalq konfransın iştirakçılarını qəbul edib.

**2002-ci il 17 may**

Azərbaycan musiqi mədəniyyətinin inkişaf etdirilməsindəki xidmətlərinə görə Xalq artisti Mirzə Babayevi "Şöhrət" ordeni ilə təltif edib.

**2002-ci il 22 may**

Prezident Sarayında Roma Papası II İoann Pavelin Azərbaycanın din, elm və incəsənət xadimləri ilə görüşündə nitq söyləyib.

**2002-ci il 25 may**

"Gülüstan" Sarayında Azərbaycan Respublikasının milli bayramı – Respublika Günü (2021-ci ildən Müstəqillik Günü) münasibətilə təntənəli mərasimdə iştirak edib.

**2002-ci il 28 may**

İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında fərman imzalayıb. İncəsənət xadimlərinə dövlət qayğısının artırılması, səhnə sənətinin inkişafı üçün daha əlverişli şərait yaradılması məqsədilə təsis olunan mükafatın üç dərəcəsi vardı: I dərəcəli mükafat – hər biri ayda 2 milyon manat (400 AZN); II dərəcəli mükafat – hər biri ayda 1,5 milyon manat (300 AZN); III dərəcəli mükafat – hər biri ayda 1 milyon manat (200 AZN).

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№11 (2076)
9 fevral 2024
www.medeniyyet.az

Əcəmi Naxçıvani – 900

# Yaxın və Orta Şərqin görkəmli memarı

**XII əsr Azərbaycan mədəniyyətinin çiçəkləndiyi bir dövr olub. Həmin vaxtlar intibah özünü memarlıq və ədəbiyyatda daha çox göstərib. Dövrün parlayan ulduzlarından biri memarlıq sahəsinə yenilik gətirən Əcəmi Naxçıvani olub. Görkəmli sənətkar daha çox inşaatçı-mühəndis, həm də memar kimi tanınıb. O, böyük sənətkarlıqla yaratdığı həndəsi fiqur və naxışları məharətlə daşlar üzərinə köçürüb.**



Bu il nəinki Azərbaycanın, həmçinin Yaxın və Orta Şərqin görkəmli memarı hesab olunan Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyidir. Yaratdığı memarlıq abidələri ilə ölməzlik qazanan sənətkarın yubileyi UNESCO-nun 2024–2025-ci illər üzrə yubileylər proqramı çərçivəsində qeyd olunacaq. Bununla da, bütün dünya onun memar-mühəndis kimi yadigar qoyduğu qiymətli maddi-mədəni mirasdan xəbərdar olacaq.

Qaynaqlarda Əcəmi Əbubəkir Naxçıvani haqda səhih məlumat azdır. Qeyd edilir ki, o, 1120-ci illərdə Naxçıvan şəhərində dünyaya göz açıb. Atabəylər hakimiyyəti dövründə yaradıcılıq fəaliyyəti göstərib. Memar kimi ilk əsəri 1162-ci ildə inşa olunan Yusif Küseyir oğlu türbəsidir.

Memar Əcəminin ikinci məşhur əsəri isə hökmdar Şəmsəddin Eldəgizin həyat yoldaşı Möminə xatının məzarı üstə 1186-cı ildə ucaldılan türbədir. Ehtimal olunur ki, memar Əcəminin layihəsi əsasında Naxçıvanda Eldəgizlərin sarayı, Cümə məscidi, xatirə abidələri, mədrəsə, karvansara və digər hökumət tikililəri də inşa edilib. Ancaq bütün bunlar günümüzə gəlib çıxmayıb. XVI–XVII əsrlərdə baş vermiş feodal ara və Səfəvi-Osmanlı müharibələri zamanı məhv edilib.

Mütəxəssislərin fikrincə, Yusif Küseyir oğlu türbəsi Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən sayılır. Yeraltı və yerüstü hissələrdən ibarət türbə konstruktiv həllinin harmoniyası və gözəlliyi ilə diqqət çəkir. Türbənin xarici səthinin hər biri müxtəlifşəkilli həndəsi ornamentlərlə bəzədilib. Memar taxçaların içərisini də naxış kompozisiyaları ilə yüngülləşdirib.

Künclərin vertikal ritmini və konstruktiv dəyərini artırıb. Bişmiş kərpiclə işlənən türbənin xarici səthlərində mürəkkəb kompozisiyalı həndəsi ornamentlərdən geniş istifadə olunub. Kərpiclərin birrəngli olması isə onun görkəminə sadəlik gətirib. Türbənin çatma tağlı qapısının üzərindəki kitabədən məlum olur ki, abidə xacə, şanlı rəis, dinin zəkası, İslamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğluna məxsusdur. Əsas fasaddan sol tərəfdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" qeydi var.

Araşdırmalarda qeyd edilir ki, Şəmsəddin Eldəgizin həyat yoldaşı Möminə xatın sarayda böyük hörmət sahibi olub. Azərbaycan Atabəylər dövlətinin möhkəmlənməsi və inkişafı üçün böyük işlər görüb. Ancaq 1175-ci ildə Möminə xatın vaxtsız vəfat edir. Bu itkidən sarsılan Şəmsəddin Eldəgiz üzünü xanımının başdaşına söykəyib deyir: "Bir bax, nə qədər güclüyəm, varım-dövlətim başımdan aşır... Amma dünya-aləm sənsiz nəyə gərəkmiş? Qoy sənin adın yaşasın. Sənin kimi bir ömür yoldaşının, bir ananın adı yaddaşlarda həmişəlik qalsın. Sən yox olub getməyəcəksən, bu yerdə kök atacaqsan".

Möminə xatının vəfatından qısa müddət sonra hökmdarın tapşırığı ilə Memar Əcəmi türbənin tikintisinə başlayır. Ancaq çox keçmir Eldəgiz də vəfat edir. Abidənin inşası 1186-cı ildə başa çatır. Bu türbə də yeraltı və yerüstü hissələrdən ibarətdir. Möminə xatının məzarı yeraltı hissədədir. Məqbərə formasına görə onbucaqlı şəklindədir.



Giriş üçün nəzərdə tutulan fasadı çıxmaq şərtilə qalan bucaqların hamısı eyni cür işlənib və naxışlarla bəzədilib. Məqbərənin üzərində gözəl xətlə Qurandan ayə və haşiyələr həkk edilib. Təqribən bir metr hündürlükdə olan bu yazı həm də məqbərənin bəzəyi sayılır. Türbə memarlıq üslubu və zərifliyi ilə diqqət çəkir. Bu da abidənin məhz bir qadının şərəfinə ucaldılmasından xəbər verir.

Tədqiqatçı-memarlar Möminə xatın türbəsini Hindistan memarlığının incisi Tac-Mahalla müqayisə edirlər. Qeyd olunur ki, türbə təkcə Azərbaycan memarlığında deyil, ümumən İslam aləmində incə kompozisiyası ilə seçilir. Özündə bədii təfəkkür dərinliyi, zövq incəliyi və mühəndislik dühası nümayiş etdirir. Memar Əcəmi türbədəki kitabədə kufi xətlə belə yazmışdı: "Biz gedərik, ancaq qalar ruzigar, biz ölərik, əsər qalar yadigar".

Araşdırmalarda qeyd edilir ki, Memar Əcəminin Naxçıvanda ucaltdığı tikililərin ümumi kompleksində nəhəng bir Cümə məscidi də olub. Abidənin təsviri fransız səyyahları Tavernye və Delafruanın qeydlərindəki şəkillərdə verilib. XIX əsrin ortalarında V.Engelqart "Qafqaz" qəzetində bu məscid haqda yazıb: "Bu, yonulmuş daşlardan tikilmiş və tağları olan nəhəng bir binadır. İçəridə hələ də gözəl relyefli oymaların izləri qalmaqdadır. Məscidin bir hissəsi artıq dağılıb. O biri hissəsi isə dağılmaq üzrədir. Məsciddən 50 sajen aralıda, hündürlüyü 20 sajenə çatan qoşa minarəli darvaza yerləşir. Darvaza da həmin kompleksə daxildir. Əvvəllər məscidlə darvazanın arasındakı yerdə müxtəlif tikililər olub. Ancaq indi bunlar yoxdur. Adama elə gəlir ki, darvaza bir qədər yaxındakı tənha qalaya aiddir".

Memar Əcəminin yaratdığı tikililər yaxın və uzaq Şərq ölkələrinin memarları üçün bir ilham mənbəyi olub. Marağadakı Göy günbəzdə (1196), Culfa şəhəri yaxınlığındakı Gülüstan türbəsində (XIII əsr), Qarabağlar, Bərdə və Salmas türbələrində (XIV əsr), türk memarı Memar Sinanın (XVI əsr) İstanbulda ucaltdığı tikililərdə Əcəmi sənətinin ənənələri yaşayır.

**Savalan Fərəcov**

# Erməni ekspansionizmi – tarixin qara ləkəsi




**Ermənilərin sərsəmliyi ilə bənzəri olmayan "böyük Ermənistan" ideyasından zaman-zaman müxtəlif xalqların zərər çəkdiyi tarixi bir gerçəkdir. XIX əsrin əvvəlində – Rusiya-İran və Rusiya-Osmanlı müharibələrinin nəticələrindən biri də ermənilərin çar Rusiyasının Cənubi Qafqazda ilhaq etdiyi ərazilərə – tarixi Azərbaycan torpaqlarına köçürülərək yerləşdirilməsi oldu. Beləcə, regionda gələcək erməni dövlətinin təməlləri atılmağa başlandı. Həmin savaşlardan birinin, 1826–1828-ci illər Rusiya-İran müharibəsinin başa çatmasının, Azərbaycan torpaqlarının Araz çayı boyunca ikiyə bölünməsinin (10 fevral 1828-ci il, Türkmənçay müqaviləsi) ildönümündə erməni ekspansionizminin tarixinə bir daha nəzər salmaq istərdik...**

Qeyd etmək vacibdir ki, tarixi mənbələrə görə, ermənilər ərazi baxımından Qafqazdan kənarda, Kiçik Asiyada, Van gölü ətrafında, Fərat və Dəclə çaylarının sahilində yaşayırdı. Bunu vaxtilə ermənilərin özləri də təsdiq edirdi. Baxmayaraq ki, ermənilərin əsl "vətəni" Rusiya imperiyasının hüdudlarından kənarda yerləşib, onlar yalnız sonrakı əsrlərdə Qafqaz ərazisinin müxtəlif yerlərində məskunlaşmışlar.

1828-ci ildə I Nikolayın fərmanı ilə İrəvan xanlığının yerində süni "Erməni vilayəti" yaradıldıqdan sonra ləğv edilmiş Naxçıvan xanlığının da bir hissəsi bura daxil edildi və bundan sonra həmin ərazi 1850-ci ildə yaradılan İrəvan quberniyasının tərkibində qaldı. İrandan Şimali Azərbaycan torpaqlarına köçürülən ermənilər əsasən Qarabağ, İrəvan, Naxçıvan, Göyçə və Zəngəzur mahallarında məskunlaşdırılırdı. Təsadüfi deyil ki, çar administrasiyası Azərbaycanın məhz bu bölgələrini seçirdi. Çünki bu ərazilərdə bir çox qədim alban qəbiristanlıqları, məbədləri, müxtəlif tarixi abidələri vardı. Alban əhalisinin özü az idi. Çar hakimiyyəti ermənilərin Qafqaz Albaniyasının bütün tarixi və mədəni abidələrini mənimsəmələri üçün hər cür şərait yaradırdı.

Qərbi Azərbaycan tarixi Azərbaycan torpaqlarının bir hissəsidir. Bu mövzu uzun illər tarixçilərimizə əsasən qapalı idi. Yalnız XX əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu məsələ dərin və hərtərəfli tədqiqat mövzusuna çevrildi. Bu torpaqların əzəli Azərbaycan torpaqları olduğunu sübut edən çoxsaylı faktlar və mənbələr var. Sözügedən ərazilərdə müxtəlif dövrlərə aid maddi mədəniyyət abidələri aşkar edilib. Zəngəzur ərazisində Qarakilsə və Soyuqbulaqda, Urud kəndində qədim qayaüstü rəsmlər var. Onlar Qobustan və Gəmiqaya qayaüstü rəsmlərinin prototiplərinə aid edilir. Bu abidələr qədim türklərin burada yaşadığının bariz sübutudur. Bu baxımdan qəbirüstü abidələr də maraq doğurur. Zəngəzur ərazisində, Urud kəndində 1927-ci ildə rus alimi V.Sısoyev qoç heykəllərinin olduğu böyük bir müsəlman qəbiristanlığı aşkar etmişdi.

Uzun müddət ərzində azərbaycanlıların bu torpaqlardan planlı şəkildə çıxarılması həyata keçirilmiş, nəticə etibarilə əzəli torpaqlarımız erməniləşdirilmişdir. İrəvan xanlığının Rusiyaya birləşdirilməsindən sonra isə bu proses daha da intensivləşdi. Əzəli Azərbaycan toponimləri və hidronimləri dəyişdirildi, müsəlman məscidləri və digər memarlıq abidələri dağıdıldı, alban məbədləri isə erməni məbədlərinə "çevrildi".

Tamamilə aydındır ki, qədimdə ermənilərin Cənubi Qafqazda heç bir dövlət təsisatı olmayıb. İrəvan ərazisində tarixən azərbaycanlılar yaşayıb, bunu mahal və məhəllə adları bir daha sübut edir.

Qeyd etmək vacibdir ki, Azərbaycanın qədim və Orta əsrlər dövlət quruluşlarının beşiyi olan Qarabağ, Naxçıvan, Zəngəzur ərazilərinin Xalq Cümhuriyyəti (1918 – 1920) dövründə qoparılması ideyası erməni siyasi partiyalarının çoxsaylı sənədlərinin əsas süjetini təşkil edirdi. Oxucuda elə bir fikir yarana bilər ki, Azərbaycan və Ermənistan respublikalarının Sovet İttifaqının tərkibində mövcud olduğu dövrdə erməni siyasi ekstremizmi öz fəaliyyətini dayandırıb və yalnız SSRİ dağıldığı zaman özünü büruzə verib. Əminliklə demək lazımdır ki, bu ictimai-siyasi "fenomen" sosialist ideologiyasının hakimiyyəti dövründə də mövcud idi, lakin gizli, üstüörtülü xarakter daşıyırdı. Erməni siyasi ekstremizminin gizli təzahürünün birinci formasına misal olaraq ötən əsrin 20-ci illərinin əvvəllərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində Sarkis Sarkisov, Anastas Mikoyan və başqaları kimi erməni millətindən olan şəxslərin rəhbər vəzifələrdə "fəaliyyətini" göstərmək olar.

Erməni siyasi ekstremizminin gizli təzahürünün daha bir faktı sovet rəhbərliyində kök salmış Anastas Mikoyan və İvan Tevosyanın himayəsi altında Ermənistan SSR-in rəhbərliyi tərəfindən əcnəbi ermənilərin repatriasiyası haqqında qərar layihəsinin hazırlanması ilə bağlıdır. 1946 – 1949-cu illər xaricdəki ermənilərin Sovet Ermənistanına kütləvi şəkildə repatriasiyası ilə əlamətdar oldu. Üç il ərzində oraya 90 minə yaxın erməni köçdü. Bu da, nəticə etibarilə, SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarın (1947) icrası ilə müşayiət olundu.

Ümumiyyətlə, Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsinin irəli sürülməsi, bir qayda olaraq, sovet dövlətinin tarixinin dönüş nöqtələrinə təsadüf edir. Stalinin ölümündən sonra SSRİ-də rəhbərliyin dəyişməsi və Sov.İKP-nin XX qurultayında onun şəxsiyyətinə pərəstişliyinə son verilməsi də bu baxımdan istisna deyildi.

1960-cı ilin dekabrında Sov. İKP MK-dan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə müraciət daxil olur. Həmin müraciət Bostonda (ABŞ) nəşr olunan "Baykar" ("Mübarizə") qəzetinin 18 oktyabr 1960-cı il tarixli nömrəsində dərc edilmişdi. Qəzet ABŞ-dakı erməni diasporunun maraqlarını təcəssüm etdirən ruhani tipli erməni millətçi partiyasının orqanı idi. Mətndə sovet Azərbaycanına ünvanlanan belə bir təşəkkürnamə də yer alırdı: "Şübhə yoxdur ki, minlərlə Naxçıvan və Qarabağ ermənilərinin əsl erməni kimi, muxtar vilayətlərdə yetişməsində və təhsil almalarında öz məktəbləri, kitabları, teatrı ilə fədakarcasına xidmət edən Azərbaycana minnətdardırlar".

O zamankı respublika rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyi qəti və sarsılmaz idi. Sözügedən məsələnin Moskvadakı müzakirələrində Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov Azərbaycan rəhbərliyinin ərazi deformasiyalarının qarşısının alınması üçün prinsipial mövqeyini ifadə etmişdi.

Erməni ekstremizminin Azərbaycan SSR-ə təzyiq göstərən cərəyanının qarşısını alan və puça çıxaran isə böyük dövlət xadimi Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Sovet İttifaqında dövlət hakimiyyəti rəhbərliyində olduğu tarixi dövr oldu. Heydər Əliyevin sarsılmaz nüfuzu, müdrikliyi, dərin zəkası və xalqına olan böyük sevgisi bütün bu müddət ərzində yeni ərazi təxribatları törətməyə cəsarət edə bilməyən istər xarici, istərsə də Rusiyadakı "beşinci kolon" ermənilərinin həvəsini qursağında qoydu.

Təsadüfi deyil ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və bu zəmində işğalçılıq siyasəti də Heydər Əliyevin SSRİ rəhbərliyindəki vəzifələrindən getməsindən sonra başlandı. Bununla belə, keçmişdən dərs almayan, Azərbaycan xalqına qarşı radikal ekstremizmi ilə seçilən erməni siyasi qüvvələri də, əslində, gündən-günə öz ölkələrini "dənizdən-dənizə Ermənistan" yaratmaq kimi mifoloji bir ideyanın iflasının yeni mərhələsinə yaxınlaşdırırdı. Otuzillik işğala Azərbaycanın siyasi-hərbi qüdrəti ilə son qoyulması bunu bir daha nümayiş etdirdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsinin Zəfərlə başa çatması Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşan bu qalibiyyətlərin təməlini illər öncə qoyan Ulu öndər Heydər Əliyevin siyasi dühasının da təntənəsi idi.

Vətən müharibəsindəki Qələbənin məntiqi davamı – 2023-cü ilin 19-20 sentyabrında Azərbaycanın bütün ərazisində suverenliyinin tam bərqərar olması idi. Azərbaycanın bu Zəfər salnaməsi erməni ekspansionizminə sarsıdıcı zərbə oldu və o sərsəm, mifik ideyanı da tarixin küllüyünə atdı...

**Lətifə Məmmədova,**
**Yasamal rayon MKS-nin direktoru**
**tarix üzrə fəlsəfə doktoru**

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

Milli Kitabxananın dövri mətbuat arxivindən...

**Mətbu səhifələrdən seçmələrdə növbəti səyahətimiz 1936-cı ilədir. O dövrün "Ədəbiyyat" qəzeti Azərbaycan mədəniyyətinin böyük siması Cəfər Cabbarlının vəfatından (31 dekabr 1934-cü il) ötən təxminən bir il ərzində onun zəngin dramaturji irsinin necə yaşadılmasından yazır.**

Diqqətimizi çəkən digər bir yazı isə 1936-cı ildə bütün sovetlər ölkəsində geniş yayılan "Staxanov hərəkatı"nın (birgünlük əmək növbəsində 10 qat artıq kömür çıxarmış məşhur şaxtaçının adı ilə – red.) incəsənət, kino sahəsində tətbiqi ilə bağlıdır.

*Qeyd: şəhər (yer), teatr və s. adları ilə bağlı o dövrün mətbuatındakı yazılış forması və üslub saxlanılıb.*

### Cəfər operada

Böyük istedad və talant sahibi olan Cəfər hələ öz sağlığında opera səhnəsinə iki əsər (libretto müəllifi kimi – red.) vermişdi ("Şahsənəm" və "Səfa" operaları). Cəfərin vəfatından sonra onun dram əsərləri üzrə opera yazmaq məsələsi ən böyük və tanınmış kompozitorların gündəlik işi sırasına girmişdir.

"Şahsənəm"in müəllifi Xalq artisti Qliyer keçən ildən "1905-ci ildə" əsəri üzrə opera yazmağa başlamışdı. Qliyer bu il bu operanı qurtarmaq fikrindədir. Kompozitor Ter-Hovandyan keçən ildən "Od gəlini" əsəri üzrə opera yazmağa başlamışdır.

### On böyük şəhər teatrında

Cəfər Cabbarlının ölümündən keçən bir il onun əsərlərinin ən çox tərcümə edilən və səhnələrdə ən çox oynanılan il olmuşdur. Vəfatından sonra Cəfərin adı və şöhrəti Azərbaycan və Zaqafqas hüdudunu aşmış, Orta Asiya, Volqa, Qrım, Lenin şəhəri və sairəyə qədər getmişdir.

36-cı ildə Cəfərin əsərləri aşağıdakı yerlərdə oynanılır: Leninqrad, Mosqva, Qazan (Tatarıstan), Ufa (Başqırdıstan), Astraxan, Simferopol, Rostov, Taşkənt, Səmərqənt (Özbəkistan), Aşqabad (Türkmənistan), Orconokidze (Şimali Osetiya), Maxac Qala, Dərbənd (Dağıstan), Qutais (Gürcüstan), Batum (Acarıstan), Erivan (bir neçə teatroda), Leninaqan (Ermənistan).

Bundan başqa Cəfərin əsərləri Azərbaycanda aşağıdakı teatrolarda oynanılır və oynanılacaq. Az DDT, Bakı İşçi Teatrosu, Devlət Erməni Teatrosu, L.Berija adına Kirovabad Devlət Teatrosu (türkcə və ermənicə), Bakı Tatar, Yəhudi və Tat işçi teatroları, Ağdam və Naxçıvan devlət teatroları. M.F.Axundov adına Devlət Opera və Balet Teatrosunda Cəfərin librettası üzrə yazılmış "Şahsənəm" əsəri oynanılır.

### Kinoda Staxanov metodu

...Kino filmini mümkün qədər tez bir zamanda meydana gətirmək məsələsi kino işçilərini coqdan bəri düşündürməlidir. Film orta hesabla bir və yaxud bir yarım ilə çəkilib qurtarır. Bu az zaman dəyildir. Vaqtın belə uzun olması bir tərəfdən onun baha çəkilməsinə səbəb olur, digər tərəfdən kino işçilərinin ixtisas və yaradıcılığının artmasına mane olur... Staxanov metodunun quruluşumuzun hər sahəsində göstərmiş olduğu cari nümunələr biz kino işçilərini də az düşündürmür. Biz işimizi yenidən qurmağa və surət məsələsində əldə edilmiş köhnə iş metodlarını yenidən nəzərdən keçirməyə məcbur oluruq...




Lakin Azərkinoda olan bir sıra təcrübələr... göstərir ki, filmin çəkilməsi üçün gözəl şərait yarada biləcək bu müddətdən lazımi qədər istifadə edilməlidir. Eyni zamanda belə bir metod kolleqtivin yaradıcılıq birliyini və intizamını qüvvətləşdirəcək, ayrı-ayrı istedadların inkişafına imkan verəcək, obrazların daha dərin olmasına və həqiqi surətdə yaradılmasına səbəb olacaqdır...

**Xalq artisti Xeyri Əmirzadə**

*"Ədəbiyyat" qəzeti, 14 fevral 1936-cı il*

# “Ötən il qanunvericiliyin tələblərinə cavab verməyən 7760 reklam dayandırılıb”

## ADRA-nın rəhbəri Aydın İbadov: “Sahibkarlarla aparılan maarifləndirmə işləri öz müsbət nəticəsini göstərir”

Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi (ADRA) dövlət başçısının 20 iyun 2017-ci il tarixli fərmanı ilə yaradılıb. Qurumun əsas məqsədi açıq məkanda reklam mühitinin sağlamlaşdırılması, inkişaf etdirilməsi, reklamın məzmunu və reklam daşıyıcıları üzrə hüquqi və texniki tələblərin qorunmasını təmin etmək, reklam yayıcıları və sahibkarlara dəstək vermək, onları maarifləndirməkdir.



Agentlik öz fəaliyyətini ölkə rəhbərinin apardığı sahibkarlara dəstək tədbirlərinə və bu sahədə vətəndaş məmnunluğunu təmin etmək yönündəki tapşırıqlarına uyğun şəkildə qurur.

Müsahibimiz ADRA idarə heyətinin sədri Aydın İbadovdur.

*– Aydın müəllim, agentliyin ötən ilki fəaliyyətini necə qiymətləndirirsiniz?*

– Ötən il Dövlət Reklam Agentliyi dövlət rüsumu və yayım haqlarının yığımı ilə bağlı rekord nəticə əldə edib. Eyni zamanda açıq məkanda reklamların qeydiyyata alınması ilə bağlı daxil olan müraciət sayında da artım müşahidə olunub və biz bu artım tendensiyanı davam etdirməyə çalışırıq.

*– Reklam yerləşdirilməsi ilə bağlı tələblərdə dəyişikliklər varmı?*

– Yaxın gələcəkdə paytaxtın açıq məkanda reklam simasına yeni nəfəs gələcək. Buna Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli qərarı ilə təsdiq edilmiş “Reklam qurğularına texniki tələblər”də dəyişiklik edilməsi haqqında qərar şərait yaradacaq. Agentlik tərəfindən hazırlanan layihədə biz beynəlxalq təcrübədən yararlanmışıq. Qərar Bakı şəhəri ərazisində tarixi, mədəni, memarlıq dəyəri olan binaların müasir estetik görünüşünü və ən əsası, təhlükəsizlik üzrə kompleks tələblərin həyata keçirilməsinə vəsilə olacaq. Sahibkarların fəaliyyətində çətinlik yaratmamaq məqsədilə onun icrası mərhələli şəkildə həyata keçiriləcək.

*– Siz həm də Dövlət Dil Komissiyasında təmsil olunursunuz. Dil Komissiyası yanında Monitorinq Mərkəzi ilə əməkdaşlıq edirsinizmi?*

– ADRA ilə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin birgə əməkdaşlığına əsasən, ötən il mərkəz tərəfindən agentliyin əməkdaşlarına bir neçə mərhələdə təlimlər keçilib. Təlimlərdə reklam daşıyıcılarında dövlət dilinin saflığının qorunması, Azərbaycan ədəbi dil normalarının düzgün tətbiqinin təmin edilməsi, reklam mətnlərinin tərtibi zamanı qrammatik normalar və s. məsələlərə xüsusi diqqət yetirilib. Həmçinin ADRA əməkdaşlarının dil vahidləri ilə bağlı üzləşdiyi çətinliklər, əcnəbi sözlərin qarşılığının dəqiqləşdirilməsi, reklam mətnlərində işlənən yeni termin və sözlərin dilimizin yazı sisteminə uyğunlaşdırılması kimi məsələlərə toxunulub. Monitorinq Mərkəzi ilə əməkdaşlığımızı bu ildə də davam etdirəcəyik. Bu il dövlət dilinin təbliği ilə bağlı uzunmüddətli maarifləndirici sosial layihənin həyata keçirilməsini planlaşdırırıq.

### Xarici dildə mətn dövlət dilində mətndən sonra yerləşdirilməlidir

*– Azərbaycan dilinin saflığının qorunmasına və dil qaydalarına nə dərəcədə əməl edilir? Bu sahədə həyata keçirilən layihələrə əsasən, real nəticələrdən danışmaq mümkündürmü?*

– “Reklam haqqında” Qanunun 4.7-ci maddəsinin, həmçinin “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanunun 7-ci maddəsinin müddəalarına görə, reklamda dövlət dilinin tələblərinə riayət edilməlidir. Reklamvericinin tələbinə əsasən, reklam qurğularında yerləşdirilən reklamın mətnində dövlət dili ilə yanaşı, digər dillərdən də istifadə oluna bilər. Bu halda xarici dildə olan mətn dövlət dilində olan mətndən sonra yerləşdirilməlidir və dövlət dilində olan mətnin tutduğu sahədən böyük olmamalıdır. Mətnində digər dillərdə ifadə olunan əmtəə nişanı və coğrafi göstərici müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən qeydə alındığı formada göstərilməlidir. Həmçinin qanunvericiliyə əsasən, sahibkarların bazarda özlərini istehlakçıya öz adları ilə tanıtmaq hüququ vardır ki, xarici dildə ada malik olan ticarət və xidmət obyektləri həmin hüquqlarından istifadə edirlər. 2023-cü il ərzində ümumilikdə açıq məkanda qanunvericiliyin tələblərinə cavab verməyən 7760 reklamın yayımı dayandırılıb. Bunlardan 842-si, yəni 10,8 faizi dövlət dili normalarının pozulması halları ilə bağlıdır. Bu, 2022-ci illə müqayisədə azdır. Görünən odur ki, aparılan maarifləndirmə işləri öz müsbət nəticəsini verir.

*– Sahibkarlarla reklam işinin təşkili sahəsində maarifləndirmə işi necə qurulur?*

– Sahibkarların maarifləndirilməsi işi agentliyin diqqət mərkəzindədir. Rsmi saytımız və çağrı mərkəzimiz, eləcə də agentliyin sosial şəbəkə platformalarındakı səhifələri vasitəsilə daxil olan zənglərlə sahibkarları maraqlandıran bütün suallar cavablandırılır. Biz, ümumiyyətlə, mediaya açığıq. Agentlik rəsmilərinin tez-tez mediada çıxışları, açıqlama və müsahibələri təşkil olunur. Sahibkarlarla da müxtəlif platformalarda görüşlərimiz keçirilir. Bu zaman onların maarifləndirilməsi ilə bağlı söhbətlərlə yanaşı, məlumatlandırıcı bukletlər də paylanılır.

### Süni intellekt də köməyimizə gələcək

*– Müsahibələrinizin birində agentliyin işində süni intellektin tətbiq ediləcəyi ilə bağlı məlumat vermişdiniz. Bu sahədə hansı işlər görülür?*

– Bəli, agentlik ölkəmizin reklam tarixində bir ilkə imza atacaq. Fəaliyyətimizdə süni intellektin imkanlarından istifadə olunacaq. Artıq bununla bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir. Onun tətbiqi nəticəsində reklamın növü, ünvanı, zonası, sahəsinin ölçüsü, dövlət rüsumu və yayım haqqı, qeydiyyatının olub-olmamağı və s. barədə məlumatlar avtomatlaşdırılmış şəkildə müəyyənləşdirilərək yeni yaradılmış mərkəzi sistemə ötürüləcək. Sistemdə məlumatlarda olan uyğunsuzluqlar dərhal təsbit ediləcək və onların aradan qaldırılması ilə bağlı zəruri tədbirlər görüləcək.

*– Agentliyin başqa yeni layihələri nəzərdə tutulurmu?*

– Bu il açıq məkanda reklam sahəsində bir sıra yeniliklərin tətbiqini planlaşdırırıq. Bu yeniliklər özündə daha çox innovativ həllərin, yeni texnologiyaların aktiv tətbiqini, eləcə də fasad reklam qurğularının müasir tələblərə cavab verən estetik görünüşünü, onların yenilənən şəhər infrastrukturu ilə ahəngini ehtiva edəcək. Yaxın gələcəkdə “Reklam məlumat mərkəzi”nin hazırlanaraq reklam yayıcılarının istifadəsinə verilməsini planlaşdırırıq. Reklam yayıcısı həmin sistemə daxil olmaqla onu maraqlandıran ərazidəki bütün mövcud reklam daşıyıcıları haqda ətraflı məlumat almaq, istəyinə uyğun reklam daşıyıcısını seçmək və birbaşa həmin daşıyıcı üzərində reklam yerləşdirmək imkanı əldə edəcək. Bu layihənin həyata keçirilməsi reklam yayıcısının işini asanlaşdırmaqla yanaşı, həm reklam daşıyıcılarının qeydiyyatı sahəsində şəffaflığı təmin edəcək, həm də açıq məkanda reklam sahəsində fəaliyyət göstərən sahibkarların işini daha da stimullaşdıracaq.

Daha bir yenilik “Reklama intellektual nəzarət sistemi”nin yaradılmasıdır. Ölkəmizdə, bütün sahələrdə olduğu kimi, reklam sahəsində də sürətli inkişaf gedir, müasir monitor tipli reklam qurğularına daha çox üstünlük verilir. Qeyd etdiyim sistem həmin növ qurğular üzərində tətbiq ediləcək. Açıq məkanda yayımlanan videomateriallarda informasiya təhlükəsizliyi yüksək diqqət tələb edir. Yeni sistemin yaradılması informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu sistemin tətbiqinə hazırlıq işləri də yekunlaşmaq üzrədir.

**Lalə Azəri**

# Fərqlənənlərdən olmaq

Xəbər verildiyi kimi, bu günlərdə ölkə başçısı elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 gənci Prezident mükafatı ilə təltif edib.

Gənclər üçün Prezident mükafatı 2013-cü ildə təsis edilib. Mükafat 10 000 manat məbləğində pul mükafatından, diplomdan, döş nişanından və həmin döş nişanının vəsiqəsindən ibarətdir. Mükafat hər il yuxarıda qeyd edilən beş sahə üzrə (hər birində 2 mükafat olmaqla) verilir.

Bu il də, necə deyərlər, “qızıl onluğa” düşərək öz fərqini göstərənlər sırasında iki nəfər mədəniyyət sahəsində çalışan gənc var. Onları oxucularımıza da yaxından tanıtmaq istərdik.

Ulucay Akif (Məmmədov) çağdaş ədəbi mühitdən bir çoxlarına yaxşı tanışdır. Mərhum şair Akif Səmədin oğludur. 1995-ci il mayın 14-də Bakı şəhərində anadan olub. 2001–2012-ci illərdə E.Əliyev adına 162 saylı tam orta məktəbdə təhsil alıb. 2013–2017-ci illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin rus dili bölməsində bakalavr pilləsi üzrə təhsil alıb. 2017–2019-cu illərdə həmin fakültədə publisistik jurnalistika ixtisası üzrə magistr təhsili alıb.

2013-cü ildən “Ulucay Akif” imzasıyla mətbuatda dərc olunmağa başlayıb. 2016–2018-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin və Mədəniyyət Nazirliyinin birgə layihəsi olan “Gənc Ədiblər Məktəbi”nin 3-cü buraxılış məzunudur. 2016-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Tələbəlik illərindən “Ədalət” qəzetində və bir sıra xəbər saytlarında fəaliyyət göstərib, 2021-ci ildə “Ulduz” jurnalının redaksiya heyətində yer alıb. Həmin ildən “Kulis.az” ədəbiyyat və mədəniyyət portalının baş redaktorudur.

“Günəşə atılan mərmilər” adlı ilk şeirlər kitabı 2016-cı ildə çap olunub. “Gizlənqaç” kitabı 2020-də işıq üzü görüb.



Seçilən gənclər sırasında təmsil olunmaqdan qürur duyduğunu və sevincini özünün sosial şəbəkə hesabında paylaşan gənc şair təəssüratını bizə bu sözlərlə ifadə etdi: “Yaradıcılığımın, fəaliyyətimin dövlətimiz tərəfindən bu cür yüksək qiymətləndirilməsi məni çox sevindirdi. Bu mənim üçün çox böyük stimuldur. Məni bu mükafata layiq bilən ölkə başçımız cənab İlham Əliyevə təşəkkür edirəm”.

***

Milli balet sənətimizdəki gənc simalardan biri də Dinara Məmmədovadır. Prezident mükafatına layiq görülən Dinara artıq bir neçə ildir özünü istedadlı və zəhmətsevər gənc kimi göstərməklə sənətsevərlərin, bu sahədə peşəkarların diqqətini çəkə bilib.

6 aprel 1998-ci ildə Bakı şəhərində anadan olan Dinara 2005-ci ildə Bakı Xoreoqrafiya Məktəbinin klassik bölməsinə daxil olub, 2017-ci ildə oranı uğurla bitirib. 2016-cı ildə Balet artistlərinin Qəmər Almaszadə adına I Beynəlxalq müsabiqəsində II mükafata layiq görülüb. 2015 – 2016-cı illərdə Azərbaycan Dövlət Musiqili Teatrında çalışıb. 2017-ci ildən fəaliyyətini Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasında davam etdirir.



2019-cu ildən repertuardakı seçilən əsərlərdə aparıcı partiyaları – Q.Qarayevin “Leyli və Məcnun” baletində Leyli, “Yeddi gözəl” baletində Od, P.Çaykovskinin “Şelkunçik” baletində Maşa, həmçinin Kukla, Şeytan, Markiza və Çin gəlinciyi, “Qu gölü” baletində kiçik qu quşunun rəqsi və Neapolitan rəqsi (solo), P.Bülbüloğlunun “Eşq və ölüm” baletində Baycan, A.Pyatsollanın “Məhəbbət tanqosu”nda Tereza, F.Əmirovun “Min bir gecə” baletində birinci nağılda Qız, A.Adanın “Korsar” baletində kəniz (solo), L.Minkusun “Don Kixot” baletində Amur, A.Məlikovun “Məhəbbət əfsanəsi” baletində Şirini ifa edib.

“Prezidentin gənclər üçün mükafatına layiq görüldüyüm üçün çox sevincliyəm. Bir gənc kimi mənim əziyyətimi görən və qiymətləndirənlərə təşəkkür edirəm. Gənclərə daim diqqət və sevgi ilə yanaşan Prezidentimiz cənab İlham Əliyevə sonsuz minnətdaram. Çalışacağam ki, dövlətimizin və sənətimizin adını bundan sonra da uca tutum”, – deyə sevincini bölüşən istedadlı artist həmyaşıdlarına bacardıqları sahədə durmadan çalışmağı da tövsiyə etdi.

**Həmidə**

## Xatirə təqvimi — 9–13 fevral

### Azərbaycan

**9 fevral 1909** – Əməkdar artist, müğənni Cahan Rza qızı Talışinskaya (1909 – 1.3.1967) Lənkəranda anadan olub. Musiqili Komediya Teatrında işləyib.

**9 fevral 1924** – Xalq rəssamı, heykəltaraş Mirələsgər Mirəsədulla oğlu Mirqasımov (1924 – 9.11.2003) Bakı şəhərində anadan olub. C.Məmmədquluzadənin (Naxçıvan), C.Cabbarlının (Bakı) monumental abidələrinin müəllifidir.

**9 fevral 1925** – Əməkdar artist, müğənni Rəhilə Mirələsgər qızı Həsənova (1925 – 28.2.2004) anadan olub.

**9 fevral 1935** – Xalq rəssamı Cabbar Ağadadaş oğlu Qasımov (1935–2006) Bakıda doğulub. Bədii portretlər, plakatlar çəkib. Rəssamlar İttifaqında plakat bölməsinin rəhbəri olub.

**9 fevral 1936** – Əməkdar incəsənət xadimi, bəstəkar Məmməd Mehdi oğlu Quliyev (1936–2001) Göyçayda anadan olub. “Aldanmış kəvakib” satirik operasının müəllifidir.

**9 fevral 1937** – Kinorejissor Ramiz Paşa oğlu Əsgərov (1937 – 27.7.1967) anadan olub. “Mən ki gözəl deyildim” filminin çəkilişi zamanı həlak olub.

**9 fevral 1946** – Əməkdar artist Əsgər Məmmədoğlu (1946 – 21.12.2015) Bakıda anadan olub. Milli Dram Teatrında çalışıb, filmlərdə, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**9 fevral 2012** – Prezident İlham Əliyev görkəmli şair Əhməd Cavadın 120 illik yubileyi haqqında sərəncam imzalayıb.

**10 fevral 1918** – Yazıçı Cəmşid Cabbar oğlu Əmirov (1918 - 29.12.1982) Naxçıvan şəhərində anadan olub. Detektiv əsərlərin müəllifidir: “Brilyant məsələsi”, “Sahil əməliyyatı” (əsər əsasında “İstintaq davam edir” filmi çəkilib) və s.

**10 fevral 1927** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi Cahangir Vahid oğlu Qəhrəmanov (1927–1995) Qəbələdə doğulub.

**10 fevral 1928** – Əməkdar artist, vokalçı Cavanşir Qafarağa oğlu Qafarov (1928–1994) Gədəbəydə anadan olub. Opera və Balet Teatrında çalışıb.

**10 fevral 1931** – Tanınmış müğənni Anatollu Mirzə Heydər oğlu Qəniyev (1931 – 1.10.1985) Neftçala rayonunda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**10 fevral 2021** – Əməkdar artist, aktyor Əlican Süleyman oğlu Əzizov (13.2.1952 – 2021) vəfat edib.

**11 fevral 1914** – Xalq artisti Rəmziyyə Osman qızı Veysəlova (1914 – 23.8.1993) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**11 fevral 1920** – Ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Əziz Mirfeyzulla oğlu Mirəhmədov (1920–2003) Bakıda anadan olub.

**11 fevral 1929** – Tarixçi alim, Əməkdar elm xadimi Tofiq Qasım oğlu Köçərli (1929 – 31.10.2007) anadan olub.

**11 fevral 1930** – Mədəniyyət xadimi, Prezident təqaüdçüsü Gülara Cəfər qızı Cabbarlı (1930–2018) Bakıda anadan olub. C.Cabbarlının Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**11 fevral 1950** – Tanınmış pianoçu, bəstəkar Cahangir Mürsəl oğlu Qarayev (1950 – 15.1.2013) Bakıda anadan olub. Fortepiano üçün əsərlərin müəllifdir. Bakı Musiqi Akademiyasında dərs deyib.

**11 fevral 1981** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sənani (Möhsün Sadıq oğlu Cəfərov; 19.6.1900 – 1981) vəfat edib.

**11 fevral 2012** – Xalq artisti, bəstəkar Elza İmaməddin qızı İbrahimova (10.1.1938 – 2012) vəfat edib. Populyar mahnıların müəllifidir.

**12 fevral 1911** – Məşhur tarzən, Xalq artisti Bəhram Məşədi Süleyman bəy oğlu Mənsurov (1911 – 14.5.1985) Bakıda doğulub. 1932-ci ildən Dövlət Opera və Balet Teatrının solisti və konsertmeysteri olub.

**12 fevral 1912** – Memar, AMEA-nın müxbir üzvü Ənvər Əli oğlu Qasımzadə (1912 – 12.3.1969) anadan olub.

**12 fevral 1921** – Məşhur aktyor Əbülhəsən Anaplı (Məmmədov; 1894–1921) vəfat edib. Hacıbəyli qardaşlarının teatr truppasının aparıcı artistlərindən olub.

**12 fevral 1923** – Şair, dramaturq İslam Əhməd oğlu Səfərli (1923 – 6.11.1974) Naxçıvan MR-nin Babək rayonunun Şəkərabad kəndində doğulub. “Göz həkimi”, “Ana ürəyi” və s. pyeslərin müəllifidir. Şeirlərinə mahnılar bəstələnib.

**12 fevral 1925** – Filosof, Əməkdar elm xadimi, professor Adil Yusif oğlu Nəcəfov (1925 – 1989) anadan olub.

**12 fevral 1933** – Əməkdar rəssam, heykəltaraş, Elmira Mehralı qızı Hüseynova (1933 – 23.1.1995) anadan olub. Həsən bəy Zərdabi (Bakı), Cəfər Cabbarlı (Sumqayıt) və başqa görkəmli şəxslərin abidələrinin müəllifidir.

**12 fevral 1933** – Əməkdar artist, xanəndə Mais Qurban oğlu Salmanov (1933 – 25.7.2008) Şəmkir rayonunun Morul kəndində doğulub. Opera və Balet Teatrının solisti olub.

**13 fevral 1898** – Xalq artisti Viktor Petroviç Şarlaxov (1898–1989) anadan olub. Dövlət Rus Dram Teatrının aktyoru olub, Dövlət mükafatına layiq görülüb.

**13 fevral 1927** – Xalq artisti Roza Heydər qızı Cəfərxanova (1927 – 18.5.2010) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olub.

**13 fevral 1946** – Xalq artisti Əliabbas Gülabbas oğlu Qədirov (1946 – 8.3.2006) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, teatra rəhbərlik (2002–2006) edib. Kinoda yaddaqalan obrazlar yaradıb, Dövlət mükafatına (“Sevinc buxtası” – Nazim, 1978) layiq görülüb.

**13 fevral 1946** – Əməkdar incəsənət xadimi, kinorejissor Cəmil Əliqulu oğlu Fərəcov (1946 – 1.8.2023) anadan olub. “Azərbaycanfilm” kinostudiyasında çalışıb. Sənədli filmlər, “Mozalan” kinojurnalı üçün süjetlər çəkib.

**13 fevral 1948** – Xalq artisti, xanəndə Sabir Məhərrəm oğlu Əliyev (1948 – 22.12.2020) Cəlilabad rayonunda anadan olub. 1968-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist-vokalçı kimi çalışıb.

**13 fevral 1952** – Tanınmış aktyor Şahmar Qərib oğlu Qəribli (1952–2018) anadan olub. Sumqayıt Dövlət Dram Teatrında çalışıb, filmlərdə çəkilib, tamaşalara quruluş verib.

**13 fevral 2009** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, akademik, Dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadə (16.8.1925 – 2009) vəfat edib. 20-dək poemanın, 10 dram əsərinin (“Vicdan”, “Yollara iz düşür”, “Özümüzü kəsən qılınc” və s.) müəllifidir.

**13 fevral 2014** – Prezident İlham Əliyev Xalq artisti Lütfəli Abdullayevin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**13 fevral 2022** – Əməkdar incəsənət xadimi, yazıçı-jurnalist Əfqan (Hacıağa oğlu Əsgərov; 23.9.1929 – 2022) vəfat edib.

### Dünya

**9 fevral 1874** – Alman əsilli rus rejissoru, aktyor, teatr xadimi Vsevolod Meyerhold (Karl Kasimir Theodor Meyerhold; 1874–1940) anadan olub.

**9 fevral 1881** – Rus yazıçısı Fyodor Mixayloviç Dostoyevski (11.11.1821 – 1881) vəfat edib. “Alçaldılmış və təhqir olunmuşlar”, “Cinayət və cəza”, “İdiot”, “Şeytanlar”, “Yeniyetmə”, “Karamazov qardaşları” və s. romanların müəllifidir.

**10 fevral 1890** – Rus şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1958) Boris Leonidoviç Pasternak (1890–1960) anadan olub.

**10 fevral 1898** – Alman dramaturqu, rejissor və teatr nəzəriyyəçisi Bertold Brext (Eugen Berthold Friedrich Brecht; 1898–1956) anadan olub.

**11 fevral 1900** – Alman filosofu Hans-Georq Qadamer (Hans-Georg Gadamer; 1900-2002) anadan olub.

**12 fevral 1865** – Polyak şairi, yazıçı və dramaturq Kazimej Pşerva-Tetmayer (1865-1940) anadan olub.

**12 fevral 1881** – Məşhur balerina, SSRİ Xalq artisti Anna Pavlovna Pavlova (1881–1931) anadan olub.

**13 fevral 1873** – Rus opera müğənnisi Fyodor İvanoviç Şalyapin (1873–1938) anadan olub. 1921-ci ildə mühacirətə gedib, Parisdə vəfat edib.

**13 fevral 1883** – Rus aktyoru və rejissoru, teatr xadimi Yevgeni Baqrationoviç Vaxtanqov (1883–1922) Vladiqafqazda doğulub.

**13 fevral 1903** – Detektiv romanlar müəllifi, Belçika əsilli fransız yazıçısı Jorj Simenon (Georges Joseph Christian Simenon; 1903-1989) anadan olub.

**Hazırladı: V.Orxan**

# “Ümid sınağı” – Heydər Əliyev Mərkəzində afrikalı rəssamın sərgisi açılacaq

Heydər Əliyev Mərkəzi əlvan rəngləri ilə nəzərləri özünə çəkəcək, izləyicilərinə xoş əhvali-ruhiyyə bəxş edəcək əsərlərdən ibarət daha bir sərginin təqdimatına hazırlaşır.




Fevralın 14-də açılacaq “Ümid sınağı” (“Crucible of hope”) sərgisində afrikalı rəssam Kojo Marfonun 20-dən çox əsəri nümayiş olunacaq.

Əslən Qanadan olan Kojo Marfo Londonda yaşayır. O, uşaqlıqdan tanış olduğu Afrikanın ənənəvi Akan artefaktlarının, heykəllərinin təsiri altında rəssam kimi inkişaf edib. Çoxsaylı səyahətlər də Marfonun müxtəlif mədəniyyətlərlə tanışlığına və həmin mədəniyyətlərin yaradıcılığında əks olunmasına səbəb olub. Onun yaradıcılığı ilə tanışlıq mədəniyyət dəhlizləri ilə səyahət etməyə bənzəyir.

Heydər Əliyev Mərkəzində sərgilənəcək əsərlər rəssamın uşaqlıq xəyallarını müasir dünyanın reallığı ilə bir-birinə qarışdırır. Hər bir əsərində isə bir-birinə məharətlə bağlanan məna və emosiya qatları ziyarətçilərə Kojo Marfonu daha dərindən kəşf etmək imkanı qazandırır. Marfonun əsərləri cəmiyyət üçün güzgü funksiyasını daşıyır, dərin düşüncələrin yaranmasına ilham verir. Rəssamın fərqli zəkasını, yumor hissini və dərin müşahidə bacarığını nümayiş etdirən bu sərgi ziyarətçilərə Marfonun özünün hansı düşüncələrə malik olduğunu anlamağa fürsət yaradır.

Kojo Marfonun əsərləri bundan əvvəl Amsterdam, Barselona, London, Nyu-York, Paris, Tokio və digər şəhərlərdə nümayiş etdirilib.

# İstanbul və Antalya dünyanın ən çox səfər edilən 10 şəhəri arasında

Türkiyənin İstanbul və Antalya şəhərləri postpandemiya dövründə dünyanın ən çox ziyarət edilən 10 şəhəri arasında yer alıb.

“Anadolu” agentliyinin məlumatına görə, 2023-cü ildə dünyanın ən çox əcnəbi qonaq qəbul edən 100 şəhəri siyahısında İstanbul bir öncəki ilə nisbətən ötən il təxminən 26 faiz artımla London və Dubayı geridə qoyub.

2023-cü ildə 16,5 milyon turist qəbul edən Antalyanı isə ən çox almanlar, ruslar və ingilislər ziyarət edib. İl ərzində əhalisindən 12 dəfə çox turist qəbul edən Antalya bu göstərici ilə Paris və Nyu-Yorku arxada qoyub. Xüsusilə Antalyaya birbaşa uçuşların artması sayəsində şəhərə səyahət edənlərin sayı ötən il 2022-ci ilə nisbətən 29 faiz artıb.

Ölkədəki daxili və beynəlxalq uçuşlarda hesabat dövrü ərzində 16,3 faiz artım qeydə alınıb.

Qeyd edək ki, Türkiyə 2023-cü ildə 10% artımla (bir il öncəyə nisbətən) 56,7 milyon əcnəbi ziyarətçi qəbul edib. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin açıqladığı məlumata görə, ölkənin turizm gəliri illik müqayisədə 17% artaraq 54,3 milyard dollara, ziyarətçilərin 1 gecəlik ortalama xərcləri isə 99 dollara çatıb. Ölkə 2024-cü ildə 60 milyon turist cəlb etməyi və 60 milyard dollar turizm gəliri əldə etməyi hədəfləyib.



# Londonda Türk İcması İncəsənət Sərgisi

Yunus Əmrə İnstitutu və Türkiyənin Londondakı Baş konsulluğu Böyük Britaniyada yaşayan türk rəssamları üçün istedadlar bayramı – 6-cı Türk İcması İncəsənət Sərgisini təşkil edir. Sərgi martın 5-dən 25-dək davam edəcək.




Sərgi Yunus Əmrə İnstitutunun Londondakı qalereyasında açılacaq. Burada müxtəlif incəsənət əsərləri – rəssamlıq, rəqəmsal sənət, fotoqrafiya, qısametrajlı filmlər, ənənəvi və müasir incəsənət, heykəllər, instalyasiyalar və s. təqdim olunacaq.

Bu sərgi geniş auditoriya ilə istedadını bölüşmək arzusunda olan türk rəssamları üçün gözəl fürsətdir. Son beş ildə Böyük Britaniya və xaricdəki digər türk icmalarından layihəyə maraq artıb. Təkcə ötən il sərgidə 60-dan çox rəssamın 140 əsəri nümayiş olunub.

Türkiyə Cümhuriyyətinin Londondakı baş konsulu Bekir Utku Atahan, Yunus Əmrə İnstitutunun Londondakı şöbəsinin direktoru Mehmet Karakuş və Böyük Britaniyada yaşayan məşhur türk rəssamlarından ibarət münsiflər heyəti təqdim olunan işləri qiymətləndirəcək.

# Türkiyədə ötən il ən az əhali artımı qeydə alınıb

## 53 mindən çox insan zəlzələdə həlak olandan sonra...

Türkiyənin əhalisi 2023-cü ildə öncəki illə müqayisədə 92 min 824 nəfər artaraq 85 milyon 372 min 377 nəfərə çatıb. Bu barədə Türkiyə Statistika Qurumunun məlumatında deyilir.




Bu, son illərdə ölkədə qeydə alınan ən az əhali artımıdır. 2022-ci ildə hər 1000 nəfərə 7,1 artım olduğu halda, 2023-cü ildə bu göstərici 1,1-ə düşüb. Bu azalmada 2023-cü ilin 6 fevralında baş verən və 53 mindən çox insanın həyatına son qoyan zəlzələnin də şəksiz izi var.

Məlumata görə, ölkədə kişi əhalinin sayı 50,1 faiz (42 milyon 734 min 71 nəfər), qadınların sayı isə 49,9 faiz (42 milyon 638 min 306 nəfər) təşkil edib.

İstanbulda əhali sayı inişillə müqayisədə 252 min 27 nəfər azalaraq ötən il 15 milyon 655 min 924 nəfər olub. Hazırda ölkə əhalisinin 18,34 faizi İstanbulun payına düşür. Əhali sayına görə İstanbuldan sonra ikinci yerdə olan Ankarada 5 milyon 803 min 482 nəfər yaşayır. Sonrakı üç yeri İzmir (4 milyon 479 min 525 nəfər), Bursa (3 milyon 214 min 571 nəfər) və Antalya (2 milyon 696 min 249 nəfər) tutur. Ən az əhalisi olan bölgə isə 86 min 47 nəfərin yaşadığı Bayburtdur.

Türkiyədə yaşayan əcnəbilərin sayı isə 2022-ci ilə nisbətən ötən il 253 min 293 nəfər azalaraq 1 milyon 570 min 543 nəfərə düşüb.

# Peruda istila zamanı qəsb edilən mədəni irs nümunələri geri qaytarılıb

Vaxtilə ispan istilası zamanı Perudan aparılan və ABŞ, Almaniya, Belçika, Kanada və İspaniyada saxlanılan 200-dən çox mədəniyyət obyekti ölkəyə qaytarılıb. Bununla bağlı Peru Xarici İşlər Nazirliyində restitusiya mərasimi keçirilib.



Kolleksiyaya ispan istilasından əvvəlki dövrə aid əşyalar – boyunbağılar, inklər həykəlləri, çankay mədəniyyətinin toxuculuq və keramika məmulatları daxildir.

Artefaktların restitusiyası Perunun Xarici İşlər, Mədəniyyət, Daxili İşlər nazirlikləri və İnterpolun birgə səyləri nəticəsində mümkün olub.

“Fürsətdən istifadə edərək, mədəni sərvətlərin qeyri-qanuni ticarətinin vurduğu ziyanı tanıyan və mədəni irsin geri qaytarılması istiqamətində səylərimizi dəstəkləyən Almaniya, Belçika, Kanada, İspaniya və ABŞ vətəndaşlarına və təşkilatlara təşəkkürümü bildirmək istəyirəm”, – deyə Perunun xarici işlər naziri İqnasio Hiqueras bildirib.

Geri qaytarılan geniş kolleksiyaya 198 arxeoloji artefakt, bir tarixi sənət eksponatı və üç arxiv sənədi daxildir. Maraqlıdır ki, 154 arxeoloji artefakt əcnəbi vətəndaşlar tərəfindən könüllü olaraq geri qaytarılıb və bu, mədəniyyətin qorunmasına qlobal sədaqət nümayiş etdirir. 42 əşya ABŞ Daxili Təhlükəsizlik Departamenti və Almaniya polisi tərəfindən aparılan müsadirələr nəticəsində tapılıb. İki əşya Los-Ancelesdəki Santa Barbara Təbiət Tarixi Muzeyi tərəfindən geri qaytarılıb.

# San-Remonun ağ-qara tarixi







## Arxiv fotolarının sərgisi

“Gallerie d’Italia”da İtaliyanın misilsiz üslubu və mədəni zənginliyi ilə tanınan San-Remo şəhərindəki eyniadlı festivala həsr olunmuş ekspozisiya açılıb.

Növbəti musiqi şousu (6–10 fevral) ərəfəsində Liquriya sahilindəki məşhur qalereya festivalın ilk 25 ili ilə bağlı fotosərgini təqdim etməklə, nostalji dolu atmosfer yaradıb.

“Gallerie d’Italia”da açılan “Zamandan kənar: San-Remo ağ-qara festivalı 1951-1976” adlı sərgidə “Publifoto Intesa Sanpaolo” arxivindən 85 şəkil təqdim olunub. Festival iştirakçılarının məşqlərindən qrim otaqlarındakı fotosessiyalara qədər nadir kadrlar festivalın pərdə arxasında baş verənlərə aydınlıq gətirir.

Xatırladaq ki, San-Remo mahnı festivalı 1951-ci ildə bu şəhərdə kurortun iqtisadiyyatını canlandırmaq məqsədilə yaradılıb. Əvvəlcə, artistlərin çıxışları yalnız radioda yayımlanıb, lakin 1955-ci ildə tədbirin populyarlığı artmağa başlayıb və o vaxtdan bəri San-Remo faktiki olaraq İtaliya televiziyası ilə ayrılmaz şəkildə bağlıdır.

İtalyan musiqisini dünyada təbliğ edən, bir çox məşhur ifaçıların karyerasına təməl olan San-Remo festivalı qitə miqyaslı yarışmanın – “Avroviziya” mahnı müsabiqəsinin də keçirilməsinin (1956-cı ildən) səbəbkarlarından sayıla bilər.

Sərgi 2024-cü il mayın 12-dək davam edəcək.

# “Avatar 3” gələn il ekranlara çıxacaq

## Milyardlıq filmlərdən daha biri

Dünyada ən çox gəlir gətirən filmlərin müəllifi kimi tanınan kanadalı rejissor Ceyms Kameronun “Avatar” silsiləsindən üçüncü ekran işinin ilkin nümayiş tarixi açıqlanıb. “Avatar 3”ün premyerası 2025-ci ildə keçiriləcək.




Qeyd edək ki, rejissorun bundan öncə çəkdiyi “Avatar 2” (“Suyun yolu”) filmi dünya prokatına çıxdığı 2022-ci ilin dekabrından bu yana 2,3 milyard dollardan çox gəlir əldə edib. Bu, Ceyms Kameronun 2 milyard dollarlıq gəlir həddini keçən üçüncü filmidir.

Bu həddi dünya kinosu tarixində ilk dəfə rejissorun 1997-ci ildə çəkdiyi “Titanik” filmi keçib. 200 milyon büdcəsi ilə dövrünün ən bahalı filmi olmuş “Titanik” dünya prokatında birinciliyi 12 il əlində saxladıqdan (təxminən 2,2 milyard gəlir) sonra yerini 2009-cu ildə Kameronun yeni filminə – “Avatar 1”ə verib. 245 milyon dollara yaxın büdcəsi olmuş bu film indiyədək prokatdan 2,9 milyarddan çox gəlir gətirib. Bu, dünya kinosu tarixində ən yüksək göstərici sayılır.

Xronoqraf

# Tarixdə bu gün



## Olaylar, faktlar (8 – 11 fevral)

### 261 il əvvəl...

**10 fevral 1763-cü ildə** Britaniya, Portuqaliya, Fransa və İspaniyanın iştirak etdiyi “Yeddiillik müharibə” (1756–1763) başa çatıb. Paris sülh müqaviləsinin şərtlərinə əsasən, Fransa Kanada üzərində idarəçiliyi Britaniyaya, Kubanı isə İspaniyaya verib. Öz növbəsində Britaniya Filippini İspaniyaya güzəştə gedib, əvəzində Floridanı (ABŞ-nin gələcək ştatı) əldə edib.

### 196 il əvvəl...

**10 fevral 1828-ci ildə** Rusiya ilə İran arasında müharibənin (1826–1828) yekunlarına dair Türkmənçay müqaviləsi bağlanıb. Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya tərəfdən general İvan Paskeviç, İran tərəfdən şahzadə Abbas Mirzənin imzaladığı müqaviləyə əsasən, Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirilib. Azərbaycan torpaqlarının Rusiya və İran arasında Araz çayı boyunca bölüşdürülməsi başa çatıb. Bundan öncə Gülüstan müqaviləsi (12 oktyabr 1813-cü il) ilə Şimali Azərbaycanın digər xanlıqları Rusiyaya birləşdirilmişdi.

### 117 il əvvəl...



**8 fevral 1907-ci ildə** Təbrizdə İran şah rejiminə qarşı silahlı xalq üsyanı başlanıb. İran inqilabının (1905–1911) mərkəzi Cənubi Azərbaycana, Təbrizə keçib. Bir qədər sonra Səttarxanın fədai dəstələri bütün Cənubi Azərbaycanda inqilab hakimiyyətini bərqərar etdilər.

### 100 il əvvəl...




**9 fevral 1924-cü ildə** Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaranıb. Naxçıvanın muxtariyyəti ilk dəfə 1918-ci ilin noyabrında, ermənilərin bölgəyə hücumları zamanı elan olunmuşdu. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti bölgəyə kömək etmək imkanında deyildi və Naxçıvanda “Araz Türk Cümhuriyyəti” adlı qurum yaranmışdı. Bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Türkiyənin dəstəyi ilə (1921-ci ilin Moskva və Qars müqavilələri) bölgənin Azərbaycanın ayrılmaz hissəsi olduğu təsbit edildi. 1923-cü ildə muxtar diyar adlanan Naxçıvan bir il sonra muxtar respublika statusu aldı.

### 65 il əvvəl...

**11 fevral 1959-cu ildə** Türkiyə ilə Yunanıstan arasında Kipr adası ilə bağlı Sürix-London müqavilələri imzalanıb. Daha sonra Britaniyanın (Kiprin faktiki metropoliyası), habelə adanın yunan və türk icmalarının da imzaladığı sazişlərə əsasən, 1960-cı ildə Kiprdə iki icmanın birgə dövləti yarandı. Amma ideya az sonra iflasa uğradı və adada hərbi münaqişə başladı.

### 32 il əvvəl...

**11 fevral 1992-ci ildə** erməni silahlı qüvvələri Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini işğal edib. 28 il işğaldan sonra, 2020-ci ilin İkinci Qarabağ müharibəsinin yekunlarına əsasən, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətinə keçən hər iki kənd, 2023-cü ilin 19-20 sentyabrındakı lokal antiterror əməliyyatının nəticəsi olaraq Azərbaycanın suverenliyi altına qayıtdı.

### 26 il əvvəl...

**10 fevral 1998-ci ildə** Azərbaycanda ölüm hökmü ləğv edilib. Prezident Heydər Əliyevin təqdim etdiyi qanun layihəsi Milli Məclisdə qəbul olunub. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra ölüm hökmlərinin icrasına moratorium qoyulmuşdu. Azərbaycan müsəlman ölkələri arasında birinci olaraq bu addımı atdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymət:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 333
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641